www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 20 aprel 2016-cı il Çərşənbə № 84 (6405) Qiymәti 60 qəpik

**Xəbər**

## Dünya təbii fəlakətlərlə silkələnir - Bakıya təhlükə varmı?

yazısı səh.15-də

**Gündəm**

### Prezident son döyüşlərin qəhrəmanlarını təltif etdi



Vətən qarşısındakı xidmətlərinə görə Milli Qəhrəman adı verilənlər də var; ordumuzun polkovnik-leytenantı həlak olub; döyüş meydanında itkin düşmüş sonuncu hərbçimizin isə meyiti tapıldı

yazısı səh.4-də

### Azərbaycandan 12 kq külçə qızıl aparanlar tutuldu

yazısı səh.12-də

### İslahatlara partiya sədrlərindən fərqli münasibət

yazısı səh.13-də

### Ermənistanda yoxsulluq səviyyəsi 76%-i keçdi

yazısı səh.12-də

### Düşmənin Mingəçevir SES hədəsi ciddi qəbul edilmir, ancaq...

yazısı səh.3-də

### Neft bazarında qeyri-sabitlik

yazısı səh.13-də

*Ekspert:*

### "Sülh səyləri 2 aya nəticə verməsə..."

yazısı səh.6-da

### Mayda əfv veriləcəyi xəbəri var

yazısı səh.7-də

### Bakının mərkəzində Leninin heykəli tapıldı - təfsilat

yazısı səh.15-də

### Dünya kürdləri arasında məşhur telekanal Azərbaycanda

yazısı səh.9-da

### AŞ PA-da gərgin müzakirələr

yazısı səh.4-də

### Neftçalada qardaş qardaşını güllələyərək öldürdü

yazısı səh.14-də

## Rusiya 4 günlük müharibənin şərikli qalibi olmaq istəyir

# YENİ QARABAĞ PLANI - AZƏRBAYCAN ÜÇÜN ŞANS, YOXSA TƏLƏ...

Rusiya nəşri planın təzə detallarını açdı; **Kremlə yaxın diplomatik qaynaq:** "Putin Azərbaycan ərazilərinin bir hissəsini qaytarmaq istəyir"; ancaq nəyin qarşılığında - əsas sual açıq qalır; sabah Lavrov İrəvana gedir; **erməni analitik:** "Azərbaycana təcili güzəştə getməliyik, çünki..."




yazısı səh.5-də

## Eldar Mahmudovun haker qrupu ABŞ bankından 150 milyon oğurlayıb

Sabiq nazirə yaxın 6 nəfərdən ibarət dəstə MTN-dəki məlum əməliyyatdan əvvəl yoxa çıxıb

yazısı səh.3-də



Şahin Mustafayev

### Nazir "batırıq" deyən supermarket rəhbərləri ilə görüşdü

yazısı səh.12-də



### Yunuslar Azərbaycandan getdilər - Hollandiya siyasi sığınacaq təklif edir

yazısı səh.3-də



*Elxan Mehdiyev:*

### "Ermənistan TV-ləri ermənilərin Gürcüstan sərhədindən necə qaçdığını göstərirdi"

yazısı səh.9-da



## Azərbaycanın yeni avtomatı təqdim edildi

**Malayziyanın paytaxtı Kuala-Lumpur şəhərində keçirilən DSA-2016 sərgisində Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin (MSN) müəssisəsində hazırlanmış EM-14 avtomat tüfəngi seriyasından yeni silahı - AZ-7,62 avtomatı ilk dəfə nümayişə çıxarılıb.**

Virtualaz.org "AzeriDefence"ə istinadən xəbər verir ki, sərgidə məlumat verilib ki, 7.62439 mm çaplı avtomat çəkisi 3.8 kq, atış məsafəsi 1000 metr, darağının tutumu 30 patron, resursu 10000 atışdır. Silahın gövdəsi üzərində pikatini relsi yerləşdirilib və kollimatorla dəstləşdirilib.

Avtomat sələfi EM-14-də olduğu kimi uzunluğu tənzimlənən 6 pilləli teleskopik qundağa malikdir. Ön hissədə əlavə - sökülüb qurula bilən ikinci tutacaq tətbiq olunub.

Qeyd edək ki, bundan əvvəl - 2015-ci ilin fevral ayında MSN Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Abu Dabi şəhərində keçirilmiş İDEX-2015 sərgisində ilk dəfə 5.56?45 mm çaplı EM-14 avtomatını nümayiş etdirib.

EM-14 xarici dizayn baxımından AK-47 xəttinə əsaslanır. Lakin bu silah özünün texnoloji prinsiplərinə və tətbiq olunmuş yeniliklərinə görə "Kalaşnikov" avtomatından əhəmiyyətli şəkildə fərqlənir.

## Bakıda mənşəyi məlum olmayan xeyli miqdarda heyvan əti aşkarlanıb



**Bakıda mənşəyi məlum olmayan xeyli miqdarda heyvan əti aşkarlanıb. Bu barədə APA-ya Dövlət Baytarlıq Nəzarəti Xidmətindən bildirilib.**

Aprelin 19-da alınmış məlumat əsasında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin mütəxəssisləri Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin Karantin tədbirlərini təmin edən əlahiddə polis taborunun əməkdaşlarının iştirakı ilə Qaradağ rayonu ərazisində Dövlət Yol Polisi postunda reyd keçirərkən Ağcabədi rayonundan Bakı şəhərinə gələn Şamxal Nəbiyevin idarə etdiyi "Daevo Neksiya" markalı 99 AU 715 dövlət nömrə nişanlı minik və Zərdab rayonundan Bakı şəhərinə gələn Nadir Qasımovun idarə etdiyi "Ford Transit" markalı 90 LX 763 dövlət nömrə nişanlı yük avtomobilləri saxlanılıb və baxış keçirilib.

Baxış zamanı minik avtomobilində (şaqqalara bölünmüş 2 ədəd iri heyvan, 6 ədəd xırda heyvan cəmdəkləri, daxili orqanlar) 500 kq, yük avtomobilində isə (4 ədəd iri heyvan cəmdəyi, heyvanın daxili orqanları, 5 ədəd heyvan baş-ayağı) 600 kq miqdarında mənşəyi məlum olmayan, qida üçün yararlığı şübhə doğuran, sağlamlığına və haradan alınmasına dair heç bir müşayiətedici baytarlıq arayışı və sənədi olmayan heyvan ətləri aşkar olunub.

Hər iki avtomobildə olan cəmdəklərdən, daxili orqanlardan baytarlıq qanunvericiliyinə uyğun nümunələr götürülərək qida üçün yararlı olub-olmamasının, bakterioloji və biokimyəvi göstəricilərinin müəyyən edilməsi məqsədi ilə Respublika Baytarlıq Laboratoriyasına (RBL) təqdim olunub.

Laboratoriya müayinələrinin nəticəsindən asılı olaraq qanunvericiliyə uyğun müvafiq qərar qəbul ediləcək.

## "Azərbaycan döyüş texnikasını təmas xəttinə çıxarmır"




**Azərbaycan Müdafiə Nazirliyi erməni tərəfinin guya Azərbaycana məxsus tankın vurulması barədə yaydığı məlumatlara münasibət bildirib.**

Nazirliyin mətbuat xidmətinin rəhbəri Vaqif Dərgahlı APA-nın sorğusuna cavabında bildirib ki, Azərbaycan əldə olunmuş razılığa ciddi şəkildə əməl edir: "Azərbaycana məxsus tanklar, o cümlədən digər döyüş texnikası qoşunların təmas xəttinə çıxarılmayıb. Əsgərlərimiz ermənilərı o qədər qorxuya salıb ki, hətta özlərinin məhv edilmiş tanklarını Azərbaycan tərəfinin adına çıxırlar. Biz birmənalı şəkildə bildiririk ki, yayılmış fotoda görünən tank erməni tankıdır və aprelin əvvəllərində aktiv döyüş əməliyyatları keçirilən zaman silahlı qüvvələrimizin bölmələri tərəfindən məhv edilib. Düşmənin bu cür yalan informasiyalar yaymaqda məqsədi ruhdan düşmüş erməni əsgərində yenidən ruh yüksəkliyi yaratmaqdan ibarətdir".

Qeyd edək ki, Ermənistan mətbuatı qoşunların təmas xəttində Azərbaycana məxsus tankın vurulması barədə məlumat və foto yayıb. Yeni görüntü kimi təqdim olunan foto bundan əvvəl Azərbaycan Silahlı Qüvvələri tərəfindən məhv edilən düşmən tankı kimi mətbuatda yayılıb.

# Prezident yeni metro stansiyalarının açılışında iştirak edib

**Prezident İlham Əliyev aprelin 19-da Bakı Metropoliteninin yeni - bənövşəyi xəttinin "Avtovağzal" və "Memar Əcəmi" stansiyalarının açılışında iştirak edib.**





APA-nın məlumatına görə, dövlət başçısı "Avtovağzal" stansiyasının rəmzi açılışını bildirən lenti kəsib və burada yaradılan şəraitlə yaxından tanış olub.

"Bakı Metropoliteni" QSC-nin sədri Zaur Hüseynov dövlət başçısına Bakı Metropoliteni xətlərinin konseptual inkişaf sxemi barədə məlumat verib.

Konseptual inkişaf sxemi Bakı Metropoliteninin mövcud infrastrukturunun 2030-cu ilədək mərhələlərlə genişləndirilməsini və nəhəng yeraltı nəqliyyat şəbəkəsinin yaradılmasını nəzərdə tutur. Bu da Bakı Metropoliteninin gələcəkdə 2-si mövcud və 3-ü əlavə olmaqla, 5 xətdən, 76 stansiyadan və 119 kilometr uzunluğunda yeraltı yollardan ibarət ümumi şəbəkəsinin yaradılması deməkdir. 2030-cu ilədək 53 yeni stansiya inşa ediləcək.

Biləcəri qəsəbəsində yaşayan sakinlərin rahatlığını təmin etmək üçün Bakı-Sumqayıt avtomobil yolunun altından keçid inşa edilib. Bakı Beynəlxalq Avtovağzal Kompleksinə isə iki keçid quraşdırılıb. Digər beş çıxış isə "Avtovağzal" stansiyası kompleksinin ərazisində yerləşir.

Sonra prezident İlham Əliyev qatarla "Avtovağzal" stansiyasından "Memar Əcəmi" stansiyasına gəlib. Dövlət başçısına məlumat verilib ki, burada tikinti-tikinti işləri yüksək keyfiyyətlə yerinə yetirilib, stansiya ən müasir tələblərə cavab verir.

## Formula-1 hazırlıqları nə yerdədir?

**"Trekdə maneələrin hazırlanması prosesi tamamlanıb. Mayın 1-dən etibarən maneələr trekin kənarına yerləşdiriləcək". Apasport.az saytının məlumatına görə, bunu jurnalistlərə açıqlamasında Bakı Şəhər Halqasının yarış obyektinin tikintisi üzrə rəhbəri Tom Butçer deyib.**

Əslən Avstraliyadan olan mütəxəssis iyunun 17-19-da paytaxtımızda keçiriləcək "Formula-1" Avropa Qran-prisinə işlərin plan üzrə getdiyini açıqlayıb. Onun sözlərinə görə, yarışın startına 17 gün qalmış bütün işlər başa çatacaq və obyektlər təşkilatçılara təhvil veriləcək: "İşlərin 90 faizi yekunlaşıb. Hər şey iyunun 1-i üçün tam hazır olacaq".

Butçer asfalt örtüyünün yekunlaşması üçün uyğun vaxtı da gözlədiklərini bildirib: ""Park İnn" hotelindən birinci döngəyə qədər olan yerə asfalt döşənməsi qalıb. Ümumilikdə trek boyunca ümumi asfalt döşənməsi 95 faiz yerinə yetirilib. Yaxın günlərdə nəqliyyata problem yaratmayacaq bir şəraitdə nə vaxt icazə verilsə, o da tamamlanacaq".

## Ziya Bünyadovun həyat yoldaşı vəfat edib



**Akademik, görkəmli şərqşünas və tarixçi, Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadovun həyat yoldaşı Tahirə Bünyadova vəfat edib.**

Milli Məclisdən APA-ya verilən məlumata görə, Milli Məclisin İşlər idarəsində məsləhətçi vəzifəsində çalışan T. Bünyadova uzun sürən xəstəlikdən sonra ötən gecə 91 yaşında vəfat edib.

Mərhumla vida mərasimi "Təzəpir" məscidində olub.

## Taleh Bağırzadənin daha iki tərəfdarı tutulub

**Respublikanın daxili işlər və prokurorluq orqanları tərəfindən Lənkəran rayonunda keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə əhali arasında milli və dini zəmində separatçı fikirlər yayan, vətəndaşları kütləvi itaətsizliyə və hüquq-mühafizə orqanları ilə açıq qarşıdurmaya çağıran şəhər sakinləri - Qismət İsayev və Vüqar İsmayılov saxlanılıblar.**

Daxili İşlər Nazirliyi və Baş Prokurorluğun mətbuat xidmətlərindən APA-ya daxil olan birgə məlumatda qeyd olunur ki, adını "Müsəlman Birliyi Hərəkatı" qoyan təşkilatının rəhbəri Taleh Bağırzadənin tərəfdarı olan bu şəxslərin üzərilərinə və yaşadıqları mənzillərə baxış zamanı 4 əl qumbarası, 123 patron, 2 trotil şaşkası, eyni zamanda, yayılması qanunla qadağan olunan, dini dözümsüzlüyü və bölücülüyü təbliğ edən 18 ədəd kitabça götürülüb.

Faktla bağlı cinayət işi başlanıb, istintaq aparılır. Saxlanılan şəxslərin digər hüquqazidd əməllərdə iştiraklarının müəyyənləşdirilməsi və cinayətkar əlaqələrinin ifşası üzrə zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.

## Ermənistan Baş Qərargah rəisinin müavini öldürülüb?

**Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində erməni təxribatının qarşısının alınması zamanı Ermənistan Silahlı Qüvvələri Baş Qərargah rəisinin müavini general-leytenant Movses Akopyan öldürülüb və ya ölüm ayağındadır.**

M.Akopyanın daimi xidmət yeri işğal edilmiş Dağlıq Qarabağ olub.

Onun koordinatları pilotsuz uçuş aparatı vasitəsilə müəyyənləşdirilib və nəzarətə götürülüb.

Azərbaycan ordusu M.Akopyanı, eləcə də digər yüksək rütbəli erməni zabitlərini, Cəbrayıl istiqamətində işğalçı qüvvələrin qərargahını məhv edə bilib.

Bugünlərdə Ermənistan prezidenti Serj Sərkisyanın gəldiyi Xankəndində keçirilmiş iclasda M.Akopyanın və Ermənistan ordusunun digər yüksək rütbəli zabitlərinin olmaması da bunu təsdiq edir. ("Trend")

## "Son zəng"in vaxtı dəyişməyib

**"Son zəng"in vaxtının, Təhsil Nazirliyinin daha öncə elan etdiyi kimi, iyunun 14-də deyil, mayın 30-da keçirilməsi ilə bağlı söz-söhbət yayılıb. Təhsil Nazirliyindən virtualaz.org-un sorğusuna cavab olaraq bildirilib k, bu il "Son zəng" tədbirləri iyunun 14-də keçiriləcək.**

Məlumata görə, Nazirlər Kabinetinin 2014-cü il 30 oktyabr tarixli 362 nömrəli qərarı ilə "Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi"ndə edilmiş dəyişikliyə əsasən, ümumtəhsil məktəblərində dərs məşğələləri sentyabrın 15-də başlayır, iyunun 14-də başa çatır. Bununla əlaqədar olaraq "Son zəng" tədbirləri iyunun 14-də keçiriləcək.

## Temperatur 28 dərəcəyə yüksələcək

**Bakı və Abşeron yarımadasında aprelin 20-də hava şəraitinin yağmursuz keçəcəyi gözlənilir. Cənub-qərb küləyi əsəcək, gündüz arabir güclənəcək.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən APA-ya verilən məlumata görə, havanın temperaturu Abşeron yarımadasında gecə 10-14, gündüz 21-26, Bakıda gecə 11-13, gündüz 23-25 dərəcə isti olacaq.

Atmosfer təzyiqi 763 mm civə sütunu, nisbi rütubət gecə 60-70, gündüz 40-50 faiz təşkil edəcək.

"Qaya Mətbuat Yayımı" MMC!

- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

YENİ MÜSAVAT
N 84 (6405) 20 aprel 2016

# Eldar Mahmudovun haker qrupu ABŞ bankından 150 milyon oğurlayıb

## Sabiq nazirə yaxın 6 nəfərdən ibarət dəstə MTN-dəki məlum əməliyyatdan əvvəl yoxa çıxıb

**6 ay əvvəl MTN-də həyata keçirilən qəfil əməliyyat xüsusi xidmət orqanı generallarının daxil olduğu böyük bir cinayətkar şəbəkəni ortaya çıxardı. Millətin təhlükəsizliyinin keşiyində durmalı olan bir qurumun rəhbərliyinin başdan-ayağa qanunsuzluğun içində olduğu haqda yayılan məlumatlar da bu əməliyyatdan sonra fakt şəklini aldı.**

MTN-də baş verən qanunsuzluqlar o dərəcə geniş idi ki, əməliyyatdan 2 ay sonra MTN bir qurum kimi ləğv olundu. Ləğv olunmuş qurumun rəhbərliyində təmsil olunan idarə, mərkəz rəisləri də daxil olmaqla, 20-yə yaxın şəxs həbsdədir. Bu şəxslər çeşidli cinayətlərdə ittiham olunurlar.

Redaksiyamıza daxil olan məlumata görə, sabiq nazir Eldar Mahmudovun MTN-də mənzillənən çetesinə haker qrupu da daxil olub. Sabiq nazirin susqun razılığı ilə həmin hakerlər vasitəsilə müxtəlif bankların sisteminə hücumlar təşkil olunub. Sonradan isə həmin banklara belə hücumların qarşısını almaq üçün MTN rəhbərliyi öz kadrlarını təklif edib yerləşdiriblər. Beləliklə də banklarda Eldar Mahmudovun maraqlarından çıxış edən kadrlar peyda olub. Redaksiyamıza daxil olan məlumatda deyilir ki, həmin kadrlar vasitəsilə əldə olunan məlumatlar sonradan bankların rəhbərliyini daim şəxsi nəzarətdə saxlamağa imkan verib.

Hakerlər qrupu ötən ilin oktyabrında MTN-də baş tutan əməliyyatdan az əvvəl oradan qovulub. Bu haqda redaksiyamızı bilgiləndirən qaynağımız deyib ki, 6 nəfərdən ibarət olan qrup üzvləri ABŞ banklarının birindən 150 milyon dolları oğurlayıb və dünyanın ən müxtəlif ölkələrində yerləşən banklar üzərindən Azərbaycandakı banklardan birinə yerləşdiriblər. Həmin vaxt bank rəhbərliyi həbsdə olduğundan bankı Eldar Mahmudovun qudası Cahangir Hacıyevə yaxın kadrlar idarə ediblər. Yerli bankdakı hesaba 150 milyon dollar oturandan sonra oradan çıxarılıb.



Məsələni ABŞ-ın müvafiq qurumları araşdırıb. Hakerlərin çırpışdırdığı pulun son nəticədə Azərbaycandakı bank hesabından çıxarıldığı müəyyən edilib. Bundan sonra Azərbaycanın müvafiq qurumlarına məsələ ilə bağlı məlumat verilib. Məsələ araşdırılıb və ölkə rəhbərliyi səviyyəsində pulun qaytarılması ilə bağlı qərar verilib. Araşdırmalar zamanı həmçinin pulu ABŞ bankından çırpışdıran hakerlərin Eldar Mahmudovun yaxın ətrafına daxil olan şəxslər olduğu üzə çıxıb. Məlum olub ki, həmin hakerlər tez-tez Eldar Mahmudovun yaxın ətrafı ilə görüşürlər. Qaynağımız bildirib ki, bu olaydan sonra Eldar Mahmudovun haker qrupundan xəbər yoxdur. Onların ölkədən qaçırıldığı haqda məlumatlar var. Belə ehtimallar da var ki, qeyri-rəsmi formalaşdırılan haker qrupu sabiq nazirin istəyinə uyğun olaraq bu və ya digər məmurun kompüter şəbəkəsinə daxil olmaqla məlumatlar toplayıb. Həmin məlumatlar sonradan məmurların şantaj olunmasında istifadə olunub.

Şantaj olunan məmurlar sırasında nazirlərin olması haqda da bilgilər var. Eldar Mahmudovun MTN-ə rəhbərliyi dövründə belə materiallardan istifadə etməklə ayrı-ayrı nazirlərdən, komitə və ASC rəhbərlərindən aylıq xərac toplaması haqda da mətbuatda zaman-zaman yazılar dərc olunub. Belə görünür ki, sabiq nazirin çox geniş əhatəli fəaliyyəti olub və bunları üzə çıxarmaq üçün hələ çox aylar lazım gələcək. Son nəticədə sabiq nazirin topladığı kompromatların onu xilas etmək gücündə olub-olmadığı da bilinəcək.

❑ E.HÜSEYNOV

# Yunuslar Azərbaycandan getdilər- Hollandiya siyasi sığınacaq təklif edir

**Bir müddət əvvəl Bakı Apelyasiya Məhkəməsinin qərarı ilə şərti azadlığa çıxan Leyla Yunus və Arif Yunus aprelin 19-da Hollandiyaya gediblər.**



"Qafqazinfo" xəbər verir ki, Yunusların vəkili Elçin Sadıqov bu barədə sosial şəbəkədə məlumat yayıb: "Leyla Yunus və Arif Yunusa ölkəni tərk etməyə icazə verilib. Onlarla axşam danışmışam. Həkim Vit onları müayinə üçün ölkəyə gəlmişdi. Onların səhhətlərinin çox ağır olması barədə yenidən əsaslandılmış rəy yazmışdı. Onlar müalicə üçün ölkədən buraxılıblar. Hər iki böyük insanı təbrik edirəm, onlara Allahdan şəfa və uzun ömür arzulayıram.Təbii ki, tam bəraət alınana qədər məhkəmə işləri davam edəcək".

Hollandiya Xarici İşlər Nazirliyinin açıqlamasında bildirilir ki, Leyla və Arif Yunus ozləri istədikləri qədər bu ölkədə qala bilərlər, siyasi sığınacaq da mumkun variantdır.

Qeyd edək ki, L.Yunus Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq, külli miqdarda ziyan vurmaqla törədildikdə), 192.2.2-ci (qanunsuz sahibkarlıq, külli miqdarda gəlir əldə etməklə törədildikdə), 213.2.2-ci (vergi ödəməkdən yayınma, külli miqdarda törədildikdə), 320.1-ci (rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə, hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma və qanunsuz hazırlama, yaxud ya bu cür sənədi satma, habelə eyni məqsədlə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı hazırlama və ya satma) və 320.2-ci (bu Məcəllənin 320.1-ci maddəsində göstərilmiş bilə-bilə saxta sənədlərdən istifadə etmə), 274 (dövlətə xəyanət) maddələri ilə ittiham olunub.

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə L.Yunus isə 8 il 6 ay, onun həyat yoldaşı, "Sülh və Demokratiya İnstitutu"nun eksperti Arif Yunus isə 7 il müddətinə azadlıqdan məhrum edilib. Həmçinin məhkəmədə onların əmlaklarının müsadirə olunması, bank hesablarındakı vəsaitin alınaraq dövlətin hesabına köçürülməsi qərara alınıb.

# Ermənilərin Mingəçevir SES hədəsi ciddi qəbul edilmir, ancaq...

### Aydın Mirzəzadə: "Bu hədə sözdən başqa bir şey deyil"

### Vaqif Behbudoğlu: "Ermənilərdən hər an hər şey gözləmək olar"

**Son vaxtlar sosial şəbəkələrin və mətbuatın gündəmini zəbt edən və geniş müzakirə mövzusuna çevrilən məsələlərdən biri də ermənilərin Mingəçevir Su Elektrik Stansiyasını (SES) hədəf götürməsi ilə bağlı etdiyi təhdidlərdir. Belə ki, ermənilər sosial şəbəkələrdə "Hədəfimiz Mingəçevir Su Anbarıdır" kimi statuslar paylaşırlar ki, bu da istər-istəməz müəyyən müzakirələrə səbəb olur.**

Ancaq mütəxəssislər ermənilərin bu məkrli planlarını heç vaxt həyata keçirə bilməyəcəklərini deyirlər. Çünki Mingəçevir SES-də təhlükəsizlik tədbirləri gücləndirilib, çoxsaylı zolaqlı müdafiə qurğuları ilə mühafizə olunur. Həmçinin Hərbi Hava Qüvvələri SES-in təhlükəsizliyini daim nəzarətdə saxlayır.

Mingəçevir SES-in tarixinə nəzər salsaq, buranın inşasının 1945-ci ildə başladığını görərik. Daha dəqiq desək, stansiyanın tikintisinə 1945-ci ildə başlanıb, 1953-cü ildə ilk hidroaqreqat, 1954-cü ildə stansiya tam gücü ilə işə salınıb. Stansiyanın tikilməsində 20 min insan iştirak edib. 1940-cı illərin sonlarına doğru 10 minə yaxın alman hərbi əsirləri bu stansiyanın quraşdırılmasına cəlb edilib. Ölkənin ən təcrübəli mütəxəssisləri tikinti meydançasının - postsovet məkanının ən böyük su elektrik stansiyasının quraşdırılmasına cəlb edilib. Bugünkü Mingəçevir şəhəri su-elektrik stansiyasının tikilməsi ilə əlaqədar olaraq qurulub.

Mingəçevir SES Cənubi Qafqazda ən böyük su elektrik stansiyası sayılır və Kür çayının üzərində, Mingəçevir şəhərinin yaxınlığında yerləşir. 1957-ci ildə Varvara SES işə düşdükdən sonra ikisi birlikdə "Mingəçevir SES silsiləsi" adlanır. Mingəçevir su anbarı 1953-1959-cu illərdə doldurulub, su tutumu 16070 milyon kub metrdir. Dəryaçanın uzunluğu 70 kilometr, eni 13-18 kilometrdir. Su anbarının tikilməsi və iki kanalın çəkilməsi ölkədə 970 min hektar sahəni suvarmağa imkan yaradıb, 200 min hektar sahənin su altında qalmaq təhlükəsini aradan qaldırıb.

"Mingəçevir SES silsiləsi"ndə 165 nəfər işçi çalışır. Stansiyanın tərkibinə 110, 220 və 330 kilovatlıq paylayıcı yarımstansiyalar daxildir. 6 hidroaqreqata malik olan Mingəçevir SES-in müəyyən olunmuş gücü 359 Mvt, orta illik elektrik enerjisi istehsalı 1,4 milyard kvadrat saatdır. Qovşağın ən əsas orijinal hissəsi yüksək təzyiqli torpaq bəndi nəinki Avropada yuyulma üsulu ilə tikilmiş ən nəhəng (hündürlüyü 80 metr) bənddir. O işlənən materialların həcminə görə həm də dünyada çınqıl-qumdan tökülmüş yeganə bənddir.



**Maraqlıdır, doğrudanmı Mingəçevir SES təhlükəlidir? Ümumiyyətlə, ermənilərin bu hədələrinin əhəmiyyəti varmı? Mingəçevirdən deputat seçilən Aydın Mirzəzadə ermənilərin bu hədəsinin sözdən başqa bir şey olmadığını dedi:** "Ermənilər Azərbaycanın onların müdafiə xəttini heç vaxt yara bilməyəcəyi ilə bağlı gurultulu bəyanatlar verirdi. Amma son hadisələr göstərdi ki, bunların hamısı təbliğat kampaniyasından başqa bir şey deyil. Azərbaycanın güclü olduğunu Ermənistan yaxşı bilir. Birincisi, Mingəçevir SES möhkəm mühəndis qurğusudur və ona Ermənistan kimi zəif bir ölkənin təhlükə törətməsi mümkünsüzdür. İkincisi, Azərbaycan bu gün Mingəçevir SES və su anbarını kifayət qədər ciddi şəkildə qoruyur. Bizim hava hücumundan müdafiə kompleksimiz var. Gələn təhlükələrin qarşısını almaq üçün çox effektli, qabaqlayıcı tədbirlərimiz var. Ermənilərin bu hədəsi sözdən başqa bir şey deyil. Əlbəttə, onlar istəyərdilər ki, bunu etsinlər. Ermənilərin gözündə bu SES-in dağılacağı təqdirdə nə insanların ölümü, nə bütün region üçün yaranacaq ekoloji fəlakət maraqlı deyil. Ermənistan bu gün insanlıqdan uzaq, istənilən metoda, çirkin yola əl atmağa hazır ölkədir. Ancaq onların bunu etməyə texniki imkanları yoxdur. Həm də ki Azərbaycan o qədər zəif deyil ki, gözümüzü bu təhlükə ilə qorxuda bilsinlər. Ermənilər yaxşı bilməlidir ki, Azərbaycanda cəmiyyətin ayrı-ayrı strateji əhəmiyyətli obyektlərinin qorunması yüksək səviyyədə mühafizədədir. Heç bir halda Azərbaycan Ermənistana onlara zərbə endirməyə imkan verməz". **Deputat bu hədələrin heç bir qorxusunun olmadığını dedi:** "Mən həmin Mingəçevir şəhərindənəm və bütün yayı o dənizdə keçirirəm. Atam o stansiyanı tikib, vaxtilə özüm o stansiyada işləmişəm. Heç bir qorxusu yoxdur".

**Mühəndis-geoloq Vaqif Behbudoğlu isə bildirdi ki, ermənilərdən hər an hər şey gözləmək olar:** "Mingəçevir Su Anbarı 16,5 milyard kub metr su tutumuna malikdir. Əgər ermənilər oranı dağıtmaq istəsələr, bu, Azərbaycanın Yevlaxdan Neftçalaya qədər olan aran rayonlarının su altında qalması deməkdir. Bunu da ermənilərdən hər an gözləmək olar. Burada gələcəkdə konstruktiv işlər görülməlidir. Çünki orada qırmızı xətt var. 83 metrə qədər suyun qalxma imkanı var. Əgər su 83 metrdən yuxarı qalxarsa, oradakı iki böyük kanal Yuxarı Qarabağ və Yuxarı Şirvan kanalı vasitəsilə suyun müəyyən hissəsini axıtmaq olar".

❑ Günel MANAFLI

YENİ MÜSAVAT
N 84 (6405) 20 aprel 2016

# Prezident son döyüşlərin qəhrəmanlarını təltif etdi

## Vətən qarşısındakı xidmətlərinə görə Milli Qəhrəman adı verilənlər də var; ordumuzun polkovnik-leytenantı həlak olub; döyüş meydanında itkin düşmüş sonuncu hərbçimizin isə meyiti tapıldı

**Azərbaycan Respublikasının ərazi bütövlüyünün qorunub saxlanması, erməni işğalçılarının 2016-cı il aprelin 2-dən 5-dək qoşunların təmas xəttində törətdikləri silahlı təxribatların qarşısının alınması və düşmənin dinc əhaliyə hücumlarının dəf edilməsi zamanı göstərdikləri qəhrəmanlıq və igidliyə görə Azərbaycan hərbçilərinin xüsusi fərqlənən bir qrupu 2016-cı il aprelin 19-da Azərbaycan prezidentinin müvafiq sərəncamları ilə yüksək fəxri ada layiq görülüb, orden və medallarla təltif olunub. Bu barədə prezidentin mətbuat xidmətinin yaydığı məlumatda bildirilib.**

Məlumata görə, Vətən qarşısındakı xidmətlərinə görə təltif edilənlər arasında "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına, "Azərbaycan Bayrağı" və "Vətənə xidmətə görə" ordenlərinə, "Vətən uğrunda", "İgidliyə görə" və "Hərbi xidmətlərə görə" medallarına layiq görülənlər var.

***

Azərbaycan Müdafiə Nazirliyi mətbuat xidməti sosial şəbəkələrdə daha bir neçə hərbçimizin şəhid olduqları barədə yayılan xəbərlərə münasibət bildirib.

**Nazirlikdən verilən açıqlamada bildiriblər ki, cəbhə xəttində baş verən son hadisələr zamanı şəhid olanlar və yaralananlar barədə məlumatlar, onların adları, soyadları, eləcə də hərbi sahədə dövlət sirri təşkil edən digər məlumatlar bəzi sosial şəbəkə istifadəçiləri tərəfindən məqsədyönlü surətdə toplanılaraq paylaşılır:** "Bəzi KİV-lər isə rəsmi məlumatlardan da başqa sosial şəbəkələrdə yayılan yanlış və dəqiqləşdirilməmiş xəbərlərdən istifadə edirlər ki, bu da məqsədəuyğun deyil.

"Həbib Müntəzir" adlı sosial şəbəkə istifadəçisi guya üç hərbi qulluqçumuzun şəhid



olması və bir nəfərin yaralanması barədə növbəti dəfə kobud səhvlərə yol verərək qeyri-dəqiq xəbəri "Feysbuk" statusunda bölüşüb. Onun bu hərəkəti düşmən tərəfin maraqlarına xidmət etməklə yanaşı, əksər hallarda erməni kəşfiyyatının Silahlı Qüvvələrimiz haqqında məlumatları əldə etməsinə köməklik göstərir və qarşı tərəfin işini xeyli asanlaşdırır.

Bu kimi hallar qəti surətdə yolverilməzdir. Müdafiə Nazirliyi kütləvi informasiya vasitələrini, ictimaiyyət nümayəndələrini və sosial şəbəkələrin istifadəçilərini bu kimi hallara qarşı mübarizədə həmrəy olmağa və qarşısının alınması üçün fəal iştirak etməklə vətəndaşlıq mövqeyi nümayiş etdirməyə çağırır.

Həqiqətdə isə təhlükəsizlik qaydalarının pozulması nəticəsində bir hərbi qulluqçumuz, polkovnik-leytenant Axundov Sənan Tahir oğlu həlak olub".

***

Döyüş meydanında itkin düşmüş sonuncu hərbi qulluqçumuzun isə meyiti tapılıb. Müdafiə Nazirliyi mətbuat xidmətindən bildiriblər ki, aprelin 19-da Beynəlxalq Qızıl Xaç Komitəsi və ATƏT nümayəndələrinin vasitəçiliyi ilə döyüş meydanında itkin düşmüş hərbi qulluqçumuzun axtarılması prosesi yenidən bərpa edilib.

Əvvəllər dəfələrlə axtarışlar aparılmış ərazidə aprelin 19-da hərbi qulluqçumuzun meyiti aşkar edilərək götürülüb. Bu, o qənaətə gəlməyə əsas verir ki, erməni tərəfi həmin meyiti əvvəlcədən taparaq götürüb, bəlli olmayan səbəblərdən özündə saxlayıb və bu barədə nə vasitəçilərə, nə də Azərbaycan tərəfinə rəsmi heç bir məlumat verməyib.

Axtarışların aprelin 19-da bərpa ediləcəyi barədə rəsmi məlumat yayıldıqdan dərhal sonra erməni tərəfi meyiti əvvəllər axtarışlar aparılan əraziyə atıb.

Hazırda hərbi qulluqçumuzun ölümünün baş verməsi şəraiti, səbəbi, vaxtı, meyitin üzərində hər hansı işgəncə, təhqir əlamətlərinin olub-olmamasını təyin etmək məqsədilə tibbi-məhkəmə ekspertizası, müvafiq tanınma və digər zəruri prosedurlar həyata keçirilir.

Tapılan meyitin hərbi qulluqçumuz - kiçik gizir Baxışov Seymur Qulamhüseyn oğlu olduğu güman edilir. Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində baş vermiş son hərbi əməliyyatlar zamanı həlak olmuş və aprelin 11-də Azərbaycan hərbçilərinin nəzarətində olan ərazidə aparılan axtarış zamanı tapılan bir Ermənistan hərbçisinin nəşinin aprelin 20-də, saat 15.00-da qarşı tərəfə verilməsi barədə aidiyyəti dövlət qurumları tərəfindən qərar qəbul olunub.

Bu barədə APA-ya Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından bildirilib. Məlumata görə, Dövlət Komissiyası prosesin həyata keçirilməsində humanitar vasitəçi qismində iştirak etmək və qarşı tərəfi məlumatlandırmaq məqsədilə Beynəlxalq Qızıl Xaç Komitəsinə müraciət edib.

❑ **"Yeni Müsavat"**



# Məzahir Pənahov MSK sədri olmasaydı...

## Seçki mütəxəssisinin fikrincə, hətta Məzahir Pənahov da demokratik seçki keçirə bilər

**Mərkəzi Seçki Komissiyasının sədri postuna Məzahir Pənahovun yenidən təyinatı ictimaiyyət arasında heç də birmənalı qarşılanmayıb. Xüsusilə bir sıra müxalifət partiyalarının rəhbərliyi hesab edir ki, Məzahir Pənahovun daha beş il müddətinə MSK sədri postunda saxlanması o deməkdir ki, yaxın beş il ərzində keçiriləcək seçkilər də həmişəki kimi olacaq. Demokratik seçkilərə ümid etməyə dəyməz. Çünki MSK-nın sədri postunda yenə M.Pənahovdur.**

Seçkilər üzrə mütəxəssis, ADP sədrinin seçki məsələləri üzrə müavini Taliyət Əliyev isə hesab edir ki, ölkədə köklü siyasi və hüquqi islahatlar keçirilməyəcəyi təqdirdə MSK sədrliyinə kimin gəlməsindən asılı olmayaraq azad, demokratik və qanuni seçkilərin keçirilməsi mümkün olmayacaq: "Ona görə də Məzahir Pənahovun yerinə başqa birisinin olmasının indiki situasiyada heç bir əhəmiyyəti yoxdur. Yəni bu dəfə MSK sədri Məzahir Pənahov seçilməsəydi belə, seçkilər müsbət mənada fərqli olmayacaqdı. İkinci əsas məsələdən biri də hakimiyyətin demokratik seçki keçirmək iradəsinin olub-olmaması məsələsidir. Əgər hakimiyyət özünün demokratik seçki keçirmək iradəsini ortaya qoysa, MSK-nın indiki tərkibi və mövcud qanunvericiliklə də demokratik və ya ən azı qanuni seçki keçirmək mümkündür. Hakimiyyət demokratik seçki keçirmək istəsə, belə bir iradə ortaya qoysa, Məzahir Pənahov demokratik seçki keçirilməsinin texniki icrasını həyata keçirəcək. Təəssüflər olsun ki, hələ ki belə bir tendensiya müşahidə olunmur".

❑ **E.SEYİDAĞA**

# AŞ PA-da gərgin müzakirələr

## Türkiyənin baş naziri Azərbaycanın haqlı mövqeyini müdafiə etdi; **Qənirə Paşayeva:** "Zohrabyan aydınlıq gətirsin görək, Ermənistan vətəndaşları Azərbaycan torpaqlarında nə edirdi?"

**Avropa Şurası Parlament Assambleyası (AŞ PA) Monitorinq Komitəsinin Azərbaycan üzrə yeni həmməruzəçisi təyin edilib. APA-nın Avropa müxbiri xəbər verir ki, bu barədə Monitorinq Komitəsinin aprelin 19-da keçirilən iclasında qərar qəbul edilib. Qərara əsasən, rumıniyalı parlamentar Sezar Florin Preda Azərbaycan üzrə yeni həmməruzəçi təyin olunub. O, bu vəzifədə ispaniyalı deputat Aqustin Kondeni əvəzləyib. Sezar Florin Preda AŞ PA-da Avropa Xalq Partiyası qrupunu təmsil edir.**

Qeyd edək ki, Monitorinq Komitəsinin Azərbaycan üzrə digər həmməruzəçisi avstriyalı parlamentar Stefan Şennakdır.

"Dağlıq Qarabağ münaqişəsi zonasında baş verən son gərginlikdə çoxlu sayda itkinin olması artıq status-kvonun davam edə bilməyəcəyini göstərir".

APA-nın məlumatına görə, bu sözləri **Türkiyənin baş naziri Əhməd Davudoğlu** AŞ-PA-nın plenar sessiyasında çıxışı zamanı deyib. O bildirib ki, Ermənistanın atəşkəsi pozmasının təsirlərinin Naxçıvan Muxtar Respublikasına da yayılması narahatlıq üçün səbəbdir: "Beynəlxalq ictimaiyyət və xüsusilə Minsk Qrupunun həmsədrləri silahlı təxribatları və atəşkəs pozuntularını dayandırması üçün Ermənistana xəbərdarlıq etməlidir. ATƏT-in Minsk Qrupunun üzvü olaraq




Türkiyə münaqişənin sülh yolu ilə həlli səylərinə dəstək verir. Azərbaycanın işğal altındakı ərazilərinin tez bir zamanda azad olunması ilə bağlı Azərbaycana dəstəyimiz də davam edəcək".

AŞ PA-nın Liberallar Qrupunun toplantısında Dağlıq Qarabağda, qoşunların təmas xəttində baş verən hadisələr müzakirə olunub.

**APA-nın xəbərinə görə, Ermənistan nümayəndə heyətinin üzvü Nairi Zohrabyan çıxışında Azərbaycana qarşı ittihamlar səsləndirib. Azərbaycan nümayəndə heyətinin üzvü Qənirə Paşayeva çıxış edərək onun ittihamlarına sərt cavablar verib:** "Ermənistan nümayəndə heyətinin üzvü Zohrabyan Liberal qrup üzvlərinə tamamilə yanlış məlumatlar verdi. O, hadisələr baş verən zaman harada idi bilmirəm, amma mən hadisələrin baş verdiyi bölgələrdən gəlirəm. Zohrabyan deyir ki, hadisə Azərbaycanın ermənilərə hücumu ilə başlayıb. Doğru deyil. Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarında qurduğu hərbi mövqelərindən atəşkəsi pozaraq cəbhə bölgələrində yaşayan mülkü azərbaycanlıları, onların evlərini hədəfə alıb. Bir neçə mülkü vətəndaşımız həlak olub, yaralanıb və evləri dağıdılıb. Hamısının foto və videolarını millət vəkillərinə göstərə bilərəm. Təbii ki, Azərbaycan ordusu da mülkü vətəndaşlarımızı qorumaq üçün Ermənistan hərbi qüvvələrinə cavab verib. Nə etməliydilər? Azərbaycan ordusu üzərinə düşən vəzifələri yerinə yetirib və heç kimsənin buna irad tutmaq haqqı ola bilməz. Həyatını itirən erməni əsgərləri isə Zohrabyanın söylədiyi kimi, Qarabağ erməniləri deyil, Ermənistan vətəndaşlarıdır. Zohrabyan aydınlıq gətirsin görək, Ermənistan vətəndaşları Azərbaycan torpaqlarında nə edirdi? Ermənistanda bəzi əsgər anaları ölkə rəhbərliyinə etiraz edərək "bizim uşaqlarımızın Qarabağda nə işi var?" deyir. Ermənistan prezidenti o anaların səslərini eşitməlidir"

**Q.Paşayeva xatırladıb ki, bütün dünya, AŞ PA da daxil olmaqla, bütün beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyünü tanıyıb:** "Azərbaycan 20 ildən artıqdır ki, problemin sülh yolu ilə həllinə çalışır. Hər zaman deyirik ki, biz, sadəcə, beynəlxalq təşkilatların, AŞ-PA-nın, BMT Təhlükəsizlik Şurasının və digər beynəlxalq qurumların bu məsələ ilə bağlı qəbul etdiyi qətnamələrin yerinə yetirilməsini istəyirik. Ermənistan işğal etdiyi Azərbaycan torpaqlarından çıxmalıdır. Məsələnin tək həll yolu budur. Siz dəyərli həmkarlarımızı Ermənistanın işğal etdiyi Azərbaycan torpaqlarından çıxmasını tələb edən AŞ PA qətnamələrinin yerinə yetirilməsi üçün Ermənistana təzyiq göstərməyə çağırırıq. Öz evlərinə dönə bilməyən yüz minlərlə məcburi köçkün sizdən bunu gözləyir, sizi işğalçıya təzyiq göstərməyə çağırır".

YENİ MÜSAVAT
N 84 (6405) 20 aprel 2016

# Rusiya 4 günlük müharibənin şərikli qalibi olmaq istəyir

**Dağlıq Qarabağ münaqişəsi zonasında 4 günlük müharibədən sonra konflikt ətrafında Rusiyanın diplomatik fəallığı xeyli artıb. Xüsusən də prezident Vladimir Putinin etibarlı şəxslərindən olan politoloq Sergey Markovun ard-arda verdiyi, sensasion sayılacaq açıqlamaları 5 aprel Moskva atəşkəsinin ardınca Kremlin məsələdə təşəbbüskarlığı bütünlüklə öz əlinə alması təəssüratını yaradır.**




# Yeni Qarabağ planı - Azərbaycan üçün şans, yoxsa tələ?

Rusiya nəşri planın təzə detallarını açdı; Kremlə yaxın diplomatik qaynaq: "Putin Azərbaycan ərazilərinin bir hissəsini qaytarmaq istəyir"; ancaq nəyin qarşılığında - **əsas sual açıq qalır; Sabah Lavrov İrəvana gedir; erməni analitik:** "Azərbaycana təcili güzəştə getməliyik, çünki..."

Bu haqda indi Rusiya mətbuatının da gen-bol və həvəslə yazması belə qənaətə gəlməyə əsas verir ki, Rusiya rəhbərliyi bu yöndə öz danışmanları və səlahiyyətli şəxsləri ilə yanaşı, təbliğat maşınını artıq işə qoşub.

Bəs hədəf nədir - problemin nəhayət, kardinal həlli, yoxsa onun qismən yoluna qoyulması ilə Rusiyanın regionla bağlı cari maraqlarının təmin edilməsi? Daha dəqiqi, məqsəd 2-3 rayonun boşaldılması qarşılığında bölgəyə "sülhməramlılar" adı ilə Rusiya hərbi qüvvələrinin gətirilməsi, Azərbaycanla Ermənistan üzərində nəzarəti itirməmək üçün isə Dağlıq Qarabağın statusunun sonraya saxlanması və Azərbaycanın Avrasiya layihələrinə qoşulmasımı?

Qoyulan suallara cavabları istər Sergey Markovun açıqlamalarında, istərsə də Rusiya və Ermənistan mediasında son günlər getmiş materiallardan tapmaq mümkündür. Onları xronoloji və məntiqi ardıcıllıqla düzəndə mənzərə xeyli aydınlaşmış kimi görünür.

***

Məsələn, Rusiyanın Qarabağ patronajlığını öz üzərinə götürməsini bundan görmək olar ki, prezidentlərin növbəti görüşünü Minsk Qrupu həmsədrləri deyil, böyük ehtimalla, elə Moskva təşkil edəcək. Bu barədə hələ 2-5 aprel döyüşləri gedərkən "Yeni Müsavat" olaraq proqnoz eləmişik.

"Erməni tərəfi Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə yüksək səviyyədə görüşün mümkünlüyü və vaxtını ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə müzakirə etməyib". Bunu Ermənistan prezidentinin mətbuat katibi Vladimir Akopyan deyib. "Hazırkı mərhələdə danışıqlar prosesinin tərəfləri və Minsk Qrupunun həmsədrləri yüksək səviyyədə görüşlərin mümkünlüyünü və vaxtını müzakirə etmirlər" - Akopyan deyib. Ancaq Ermənistan prezidentinin mətbuat katibi prezident Putinin Qarabağ münaqişəsinin tənzimlənməsi üzrə prezidentlərin görüş təşkil etməsi təşəbbüsü ilə bağlı məlumatı təkzib etməyib.

Yada salaq ki, 2014-cü ildə Azərbaycan və Ermənistan prezidentlərinin Soçi şəhərində baş tutmuş görüşü məhz Rusiya prezidentinin təşəbbüsü ilə, cəbhədəki avqust döyüşlərindən az sonra təşkil edilmişdi. Ermənistan rəsmisinin sözlərindən belə məlum olur ki, münaqişənin tənzimlənməsi üzrə danışıqların yeni mərhələsi də MQ-nin yox, Rusiyanın himayəsində keçiriləcək.

***

**Erməni ekspertlər isə 4 günlük müharibədən sonra Ermənistan üçün danışıqlar masası arxasında əlverişsiz bir durumun yarandığını, İrəvanın Moskvanın təzyiqlərinə qarşı immunitetsiz qaldığı barədə intensiv yazmağa başlayıblar. Məsələn, müxalifyönlü Iragir.am saytının şərhçisi Naira Ayrumyan Ermənistan üçün qənaətbəxş olmayan nəticələrə gələrək yazıb:** "Rusiya indi güclü pressinq aparır. Bir neçə dolayı addımı göstərmək olar - Putin erməniləri islam mobilləşməsi ilə "qorxutmaq" üçün Lukaşenkonu İslam Əməkdaşlıq Təşkilatının iclasına ezam edib. Rusiya deputatları İrəvana gələrək erməni həmkarları ilə müştərək bəyanata qol çəkməkdən imtina etdilər. Pressinq güclənir, amma erməni hakimiyyəti bu haqda açıq bəyan etməkdən və başqa yerdə müttəfiq axtarmaqdansa, Ermənistanın alternativsizliyini bəyan edir. Ermənistan Avrasiya İqtisadi İttifaqından çıxarsa, biz müttəfiqsiz qalarıq, bunu xarici işlər nazirinin müavini Şavar Köçəryan bəyan edir. Yəni XİN Ermənistanı manevr məkanından məhrum edərək, başqa müttəfiqlərlə danışıqlar imkanını heç nəzərdən də keçirmir. Əgər indiyə qədər Rusiya Güney Qafqazda qalmaq üçün daima "sabitliyi" və Qarabağ münaqişəsinin həll olunmamasını dəstəkləyirdisə, indi Moskva təcili olaraq Qarabağ münaqişəsini Azərbaycanın xeyrinə həll etməlidir, əks halda, bu münaqişə onsuz həll ediləcək".

***

Markovun ilin sonunadək 5 rayonun qaytarılacağı haqda açıqlaması, digər rusiyalı politoloqların və Rusiya mediasının məsələyə dair bənzər şərh-materiallarında Kremlin həqiqətən tələsdiyi haqda təəssüratı yaranır.

**"Putin Azərbaycan ərazilərinin bir hissəsini qaytarmaq istəyir". Bunu nüfuzlu "İzvestiya" qəzeti özünün dünənki sayında diplomatik qaynaqlara istinadən yazıb.** "Rusiya, şəxsən prezident Vladimir Putin yaxın günlərdə başlayacaq Qarabağa dair danışıqlarda kompromis əldə olunmasına aktiv şəkildə yardımçı olacaq" - nəşr qeyd edib.

**Qəzet yazıb:** "Diplomatik mənbənin sözlərinə görə, Rusiya lideri hər iki tərəfin siyasətçilərini güzəştlərin vacibliyinə şəxsən inandırmağa hazırdır. "Ağır danışıqlar gözlənilir və burada Rusiyasız keçinmək mümkün deyil" - qaynaq bildirib. **Diplomatik mənbə Rusiyanın nizamlanma planını da açıqlayıb:** "Plan ondan ibarətdir ki, Azərbaycan ərazilərinin bir qismi qaytarılır, münaqişə zonasına sülhməramlı qüvvələr yeridilir, köçkünlər qayıdır və Dağlıq Qarabağ legitimləşir, yeni sərhədlər açılır, iqtisadi əlaqələr bərpa edilir, daha sonra, yeni emosiyalar yatdıqdan sonra regionun mənsubluğu haqda referendum keçirilir".

"Az öncə birbaşa xətdə Vladimir Putin vəd eləmişdi ki, Moskva istər beynəlxalq strukturlar olsun, istərsə də ikitərəfli formatda Qarabağ probleminin həlli üçün səylərini artıracaq. Kim nə deyir-desin, Rusiya bu məsələnin həllində maraqlıdır, çünki biz həm Azərbaycan, həm də Ermənistanla dolğun şəkildə işləmək istəyirik" - "İzvestiya" yazıb.

***

Kremlin təkbaşına aktiv Qarabağ təşəbbüskarlığı içində olmasını Rusiya xarici işlər naziri Sergey Lavrovun bir həftənin içində iki dəfə ABŞ dövlət katibi Con Kerri ilə Qarabağ mövzusunda telefon danışığı aparmasından da görmək olar. İstisna deyil ki, rəsmi Moskva prosesin daha effektli olması üçün Amerika tərəfini məlumatlandırmağa ehtiyac duyub.

Rusiyada yəqin onu da nəzərə almamış deyillər ki, prezidentliyinin son aylarını yaşayan Obama bu prosesə Putin kimi dərindən maraq göstərməyəcək. Sabah - aprelin 21-də isə Lavrov İrəvana səfər edəcək və böyük ehtimalla, "Rusiya planı"nın detalları ilə Sərkisyanı tanış edəcək.

Bəs görəsən, Azərbaycan Rusiyanın yeni "həll planı"na necə baxır? Putin rəsmi Bakını öz planına inandıra biləcəkmi? Ermənistanla bağlı Kremlin problemi yoxdur, - işğalçı ölkə xüsusən də Azərbaycanın blits-zəfərindən sonra onun ovcunun içindədir, - o zaman Putin nəyin qarşılığında Azərbaycan ərazilərinin bir hissəsini qaytarmaq istəyir?

Bəzi məlumatlara görə, Rusiya həm də son vaxtlar ABŞ-ın, NATO-nun bölgədə möhkəmlənmək planlarından narahat olduğu üçün tələsir və Qarabağ "kartı"ndan yararlanmaq niyyətindədir. Ancaq bu, tələsiklik Azərbaycan üçün tələ ola, son hərbi uğurun siyasi qazancları əlimizdən çıxa da bilər, əgər rəsmi Bakı məsələni bu cür prinsipial şəkildə qoymasa: heç bir "5+2" formulu *(ərazilərimizin sortlara bölünməsi)*, Dağlıq Qarabağda referendum, sülhməramlı söhbəti ola bilməz, Dağlıq Qarabağın statusu bəri başdan dəqiqləşməlidir - Azərbaycan tərkibində muxtariyyət. Yalnız Ermənistan Azərbaycanın ərazi bütövlüyünü rəsmən tanıyandan və status məsələsi yazılı şəkildə razılaşdırıldıqdan sonra regiona sülhməramlıların gətirilməsi, Azərbaycanın Avrasiya layihələrinə qoşulması müzakirə predmeti ola bilər.

***

**Azərbaycanın məsələni məhz bu cür, qəti qoyması üçün olduqca əlverişli bir məqam, tarixi şans yetişib. Məsələ həm də ondadır ki, Ermənistan indi rusiyalı ekspertlərdən birinin dediyi kimi, həqiqətən nokdaun vəziyyətindədir, eyni zamanda güzəştlərə meyllidir və panikadadır. Bunu işğalçı ölkədə hökm sürən bədbin ab-havadan da asanca görmək, sezmək olar.**

"Ermənistan iqtisadi cəhətdən Azərbaycandan geri qalır və onun inkişafını izləyə bilmir. Buna görə biz Qarabağ məsələsində təcili olaraq güzəştə getməliyik. Nə qədər gec deyil, daha az itki ilə bu prosesi başa çatdırmalıyıq". Bu barədə Ermənistanın 1in.am saytında yayımlanan məqalədə deyilir (publika.az).

**Tanınmış erməni şərhçi Yeqiazar Ayntabsinin qələmə aldığı məqalədə İrəvan rejimi 22 ildə xalqı aldatmaqda ittiham olunur:** "1-ci Qarabağ müharibəsində atəşkəsdən sonra 22 il ərzində biz 2200 dəfə eşidirdik ki, münaqişə artıq müharibə sferasından çıxaraq siyasi meydana keçib və burada diplomatiya, eləcə də iqtisadiyyat əsasdır. Amma hakimiyyət 22 il ərzində bunlardan heç birini etmədi. Əgər yarısını belə etsəydi, onda "4 günlük müharibə"də tamamilə başqa nəticə əldə edilər, münaqişənin nizama salınmasında həm daxili, həm də xarici dəstək qazanılardı. Uzun illər biz danışmağa öyrəşdik ki, Azərbaycanda neft və qaz var, biz iqtisadi cəhətdən onun arxasınca çata bilmirik. Amma biz bundan nəticə çıxara bilmədik. Hansı ki, burada iki fövqəladə nəticə əldə olunmalı idi: birincisi, bizdə obyektiv səbəbdən resurslar yoxdursa, iqtisadi rəqabətə dözə bilmiriksə, onda mümkün qədər tez güzəştə getməliyik. İkincisi, ilk fikrin əksinə olaraq, biz milli birliyə nail olmalı idik".

**Müəllif qeyd edir ki, birinci variant Levon Ter-Petrosyanın dövründə gündəmdə olub:** "90-cı illərin sonlarında belə qərar verilmişdi ki, güzəştə edərək münaqişənin həllinə nail olunur. İkinci variant Robert Köçəryanın dövründə gündəmdə idi. Serj Sərkisyanın "4 günlük müharibə"dən sonra Petrosyanla görüşməsi onun da birinci variant haqda düşündüyünü göstərir. Lakin artıq bu da çox gec görünür. Həqiqətən Azərbaycan neft-qazı ilə Ermənistanı geridə qoyub və biz çətin ki, onun səviyyəsinə çataq. Buna görə də daha çox itki verməden təcili güzəştə getməliyik".

**Ermənistanda dövlət bəhanəsi ilə "bandokratiya" yaradıldığını qeyd edən müəllif sonda yazır ki, İrəvan hakimiyyəti daxilində Qarabağ məsələsində təcili güzəştə getməyin tərəfdarları var:** "Lakin ümumi bandokratiya buna imkan vermir. Halbuki bu, dövləti qorumaq yox, onu məhv etmək siyasətidir".

Necə deyərlər, əlavə şərhə yer qalmır. Azərbaycan əsgəri gerçəkdən də kiçik və uğurlu bir həmlə ilə Qarabağ məsələsi ətrafında yeni bir situasiya, o cümlədən işğalçı ölkədə panika, bədbinlik və təslimçilik ovqatı yaradıb. Diplomatiyamız ondan yararlanmağa, sadəcə, borcludur.

❑ Siyasət şöbəsi

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 84 (6405) 20 aprel 2016



# "Sülh səyləri 2 aya nəticə verməsə, savaş qaçılmaz olacaq"

**Rusiyanın müdaxiləsi nəticəsində əldə olunmuş atəşkəs razılaşmasına baxmayaraq, işğalçı Ermənistan aqressiv siyasətini davam etdirir. Elə düşmən ölkənin hər ötən sutkaboyu müxtəlif silahlardan Azərbaycanın mövqelərini atəşə tutması qarşı tərəfin islah olunmaq niyyətində olmadığını nümayiş etdirir.**





## **Elxan Şahinoğlu:** "Sərkisyan işğalçı ordusuna hücum əmri verməklə bizim işimizi asanlaşdıracaq"

## **Ərəstun Oruclu:** "Azərbaycanın reaksiyası əvvəlkindən daha sərt olacaq"

Üstəlik, Ermənistanın 5 apreldən sonrakı bütün davranışları işğalçılıq siyasətinin davam etdiriləcəyindən xəbər verir. Toqquşmaların dayandırılmasına nail olmaqla əslində Ermənistanı böyük itkilərdən xilas edən Rusiya belə bu gün ermənilərin hədəfindədir. Hansı ki, əslində Ermənistan atəşkəs razılaşması ilə faktiki olaraq Azərbaycan ordusunun Xankəndinə qədər irəliləməsinin qarşısını alan Moskvaya minnətdar olmalıydı.

Qeyd edək ki, Rusiyanın məşhur "İzvestiya" qəzetinin Rusiya diplomatik çevrələrindəki mənbələrə istinadən yazdığına görə, Rusiya prezidenti Vladimir Putin Dağlıq Qarabağ münaqişəsinə dair Azərbaycan və Ermənistan arasında kompromislərin əldə olunması üçün şəxsən və fəal şəkildə çalışacaq. Qeyd edilir ki, Putinin vasitəçiliyi ilə Qarabağ danışıqları yaxın günlərdə başlayacaq və o, hər iki tərəfdən siyasətçiləri kompromislərin zəruriliyinə şəxsən inandırmağa səy göstərəcək.

Bu yaxınlarda Azərbaycan Prezident Administrasiyasının yüksək çinli rəsmisi də danışıqlara başlanacağını təsdiqləmişdi. Putinin müşaviri, Rusiyanın Siyasi Tədqiqatlar İnstitutunun direktoru, politoloq Sergey Markov isə danışıqların sürətlə davam edəcəyini və sonda ətraf rayonların qaytarılacağını açıqlayıb. Belə bir situasiyada isə erməni lobbisi və radikal ermənilər hətta terrorçuların Qarabağda yerləşdirilməsi bahasına işğal etdikləri əraziləri əldə saxlamağa çalışırlar.

Düzdür, baş verənləri, yəni anti-Rusiya kampaniyasını Rusiya-Ermənistan anlaşmasının nəticəsi hesab edənlər də var. Güman olunur ki, Kreml hərbi-strateji müttəfiqi, bir az da konkretləşdirsək, forpostu Ermənistanı guya birtərəfli qaydada himayə etmədiyini nümayiş etdirmək üçün ermənilərin "qırmızı xətti" keçməsinə razılaşıb. Hər halda, Ermənistan hələ də anlamaq istəmir ki, növbəti müharibə onun üçün fəlakətlərə səbəb ola bilər.

***

Azərbaycanın uğurları artıq xaricdə də etiraf olunur və İrəvan bunu görməzdən gələ bilməz. Bu arada Fransanın "L'Opinion" nəşrinin hərbi məsələlər üzrə analitiki Pyer Jan- Dominik Merçet Qarabağdakı 4 günlük müharibə barədə təhlilində Ermənistanla az qala 30 ildir davam edən münaqişədə Azərbaycanın qələbə qazandığını yazıb. (virtualaz.org) Analitik Azərbaycan silahlı qüvvələrinin aprelin əvvəllərində apardığı döyüşlərdə əldə etdiyi nəticənin hərbi baxımdan kiçik olduğunu, ancaq siyasi baxımdan çox mühümlüyünü vurğulayır.

Diqqətçəkən məsələlərdən biri də budur ki, cəbhədəki son uğursuzluqlar Ermənistan hakimiyyətini müharibəyə alternativ kimi baxmağa vadar edib. Fakt budur ki, Serj Sərkisyanın kreslosu kifayət qədər laxlayıb, o, daxili və xarici dayaqlarından məhrum olub. Bu mənada cəbhədə hansısa uğurlar qazanmaq istəyir ki, öz hakimiyyətini daha bir neçə illiyə sığortalasın.

Ermənistanın hətta Rusiyanın sülh çağırışlarına rəğmən, danışıqlarda maraqlı olmadığı Sərkisyanın 18 apreldə Azərbaycanın işğal altındakı Dağlıq Qarabağ bölgəsinə qanunsuz gəlişi də bir daha təsdiqlədi. Məlumata görə, Sərkisyan Xankəndində separatçıların başçısı Bako Saakyanla birgə ordunun yüksək çinli zabitlərinin iştirak etdiyi müşavirə keçirib. Müşavirədə cəbhə xəttindəki vəziyyət müzakirə olunub. "Sərkisyan bildirib ki, Qarabağdakı silahlı qüvvələrin möhkəmləndirilməsi, döyüş qabiliyyətinin gücləndirilməsi dövlətin qarşısında duran əsas məsələ olaraq qalır"-erməni KİV-i yazır. Bu hadisə aşkar şəkildə beynəlxalq hüququn tapdanması deməkdir. Ermənistan son vaxtlaradək Dağlıq Qarabağın özünü müdafiə etdiyini israr edirdi. Ancaq Qarabağda məhv edilən erməni əsgər və zabitlərin Ermənistanda dəfn edilməsi yalanların üstünü açdı. Bundan sonra Sərkisyanın Qarabağa gəlməsi onun bütün fırıldaqlarının ifşası oldu.

**"Ermənistan rəhbərliyinin bugünlərdə işğal olunmuş Azərbaycan ərazilərinə səfəri və orada hərbi müşavirə keçirməsi ağır olan vəziyyətin daha da gərginləşməsinə xidmət edən növbəti təxribatçı addımdır".** Bu sözləri APA-ya açıqlamasında Xarici İşlər Nazirliyinin mətbuat katibi Hikmət Hacıyev deyib. **"Bir daha bildiririk ki, cəbhədə vəziyyətin gərginləşməsinə görə məsuliyyət işğalçı dövlət kimi tam şəkildə Ermənistanın üzərinə düşür" - açıqlamada bildirilir.**

***

**"Şərq-Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Ərəstun Oruclu heç bir variantın istisna olunmadığını vurğuladı:** "Çünki son hərbi toqquşma Ermənistanın daxilində yeni siyasi gəlişmələrə səbəb oldu. Biz gördük ki, artıq hakimiyyətə iddialılar ortaya çıxmağa başladı, o cümlədən Robert Köçəryan. Sərkisyan təcili şəkildə Levon Ter-Petrosyanla görüşə getdi, bunun ardınca ölkədə anti-Rusiya əhval-ruhiyyəsi baş qaldırdı. Təbii ki, Ermənistan rəhbərliyinə baş verənləri kompensasiya etmək üçün müəyyən addım atmaq lazımdır. Bu addım da heç bir halda siyasi, ya diplomatik ola bilməz. Ən azı ona görə ki, istənilən halda aprelin əvvəlindən başlayan qarşıdurmada üstünlük Azərbaycanın tərəfindədir və burada artıq hansısa sözün, vədin köməyi olmayacaq. Ona görə də Ermənistan rəhbərliyi məcburdur ki, siyasi deyil, hərbi yolla hansısa bir uğur əldə etsin, yaxud uğurun əldə olunmasını imitasiya etsin. Bununla da cəmiyyətə göstərsin ki, bir növ artıq baş vermiş hadisənin, itkinin kompensasiyasını təmin edib və hər şey status-kvo vəziyyətinə qayıdıb. Sərkisyana bu gün ciddi hərbi uğur lazımdır. Ona görə də Azərbaycan hər şeyə hazır olmalıdır və nəzərə almalıdır ki, Ermənistan tərəfdən indi ən gözlənilməz anda zərbə gələ bilər".

**Ancaq bir sıra ciddi ekspertlər bunu Ermənistanın özü üçün təhlükəli sayır. Bu gün nə erməni cəmiyyətində döyüş ruhu var, nə ölkənin durumu buna imkan verir, nə də beynəlxalq aləm Ermənistanı himayə edir. Ə.Oruclu da təsdiqləyir ki, indiki situasiyada hərbi əməliyyatlar imitasiya olsa belə, bu, Ermənistan üçün riskdir:** "Bunun ardınca son qarşıdurmadan daha ciddi toqquşmalar ola bilər. Təbii ki, Azərbaycanın reaksiyası əvvəlkindən daha sərt olacaq. Bu da hərbi qarşıdurmanın miqyasını genişləndirə bilər. Artıq bundan sonra proqnoz vermək xeyli çətin olacaq".

**Politoloq bunu da qeyd etdi ki, burada bir çox məsələlər Rusiyanın iradəsindən asılıdır:** "Ermənistanı silahlandıran Rusiyadır. Əgər Moskva bu imkanı yaradacaqsa, Ermənistan toqquşmalara gedəcək. Yox, Ermənistan indiki silah arsenalı ilə qalacaqsa, bu vəziyyətdə balans Azərbaycanın xeyrinədir. Əgər Ermənistan qəfil hücum edib Azərbaycanın hansısa mövqelərini əldə etmək istəsə, təbii ki, Azərbaycan cavab tədbiri görəcək və bu, son nəticədə genişmiqyaslı hərbi toqquşmalara səbəb olacaq".

***

**Ehtiyatda olan polkovnik-leytenant Üzeyir Cəfərov da istisna etmir ki, savaş hər an başlıya bilər və bu, realdır:** "Əgər yaxın bir həftəyə, on günə vəziyyətdə müsbətə doğru dəyişiklik olmazsa, şəxsən mən yenidən toqquşmaların olacağını istisna etmirəm. Nəzərə alsaq ki, düşmən də aktiv şəkildə təmas xəttinə canlı qüvvə və döyüş texnikası toplayır. Deməli, atəşkəsin növbəti ildönümünə qədər cəbhədə çox ağır toqquşmaların olması labüd və qaçılmazdır".

Ermənistandan Qarabağa hərbi texnika və silah-sursatın daşındığını ABŞ-ın özəl kəşfiyyat araşdırmaları mərkəzinin Avrasiya regionu üzrə baş analitiki Yevgeni Çauşovski də öz qeydlərində yazıb. Eyni zamanda erməni hakimiyyəti insan resursunun azalması səbəbindən qadınları da orduya çağırdığını etiraf edib. Paralel olaraq əhalisinin 76 faizi yoxsulluq həddində yaşayan düşmən ölkədə orduya yardım kampaniyası başlayıb. Dağlıq Qarabağın separatçı rəhbərliyi bəyan edib ki, 18 apreldə 265 hüquqi və fiziki şəxsdən 734.000 $ (352.530.400 dram) yardım toplanıb. 4 apreldən bəri isə yığılan vəsaitin miqdarı 6 milyon dollardır. Məqsəd ordunun təchizatının yaxşılaşdırılmasıdır. Şübhəsiz ki, bu vəsait erməni lobbisinin xətti ilə yığılır. Düşmənin itirilmiş mövqeləri geri almaq əks-həmlələri nəticəsiz qalsa da, təxribatlar hər an gözləniləndir.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlunun sözlərinə görə, Serj Sərkisyan gərək nə qədər ağılsız olsun ki, itirdiyi strateji yüksəklikləri geri qaytarmaq üçün orduna hücum əmri versin. Ekspert "Yeni Müsavat"a dedi ki, bu səhv Sərkisyana baha başa gələcək:** "Birincisi, Sərkisyan işğalçı ordusuna hücum əmri verməklə əslində bizim işimizi asanlaşdıracaq. Çünki belə olan halda ordumuzu artıq kimsə saxlamayacaq. Bu isə müharibənin başlanmasıdır. Azərbaycan cəmiyyətinin sosial sifarişi də məhz müharibə yolu ilə torpaqların geri qaytarılmasıdır. İkincisi, Sərkisyan hücum əmri verməklə Ermənistandakı mövqelərini bir az daha laxladacaq. Ona indiki itkiləri cəmiyyət bağışlamır. Növbəti itkilər isə onun siyasi karyerasının sonunu bir az daha yaxınlaşdıracaq. Ancaq Sərkisyan müharibəyə başlamasa da, müharibəyə biz başlamalı olacağıq. Bunun olmaması üçün danışıqlarda iki ay ərzində nəticə olmalıdır. Əks halda, savaş qaçılmaz olacaq».

**E.Şahinoğlu qeyd edib ki, əgər bu danışıqlar yaxın zamanlarda yenə də heç bir səmərə verməsə və konkret nəticələr əldə olunmasa, bir neçə aydan sonra, konkret olaraq yayda münaqişə zonasında müharibə başlaya bilər:** "Müharibənin başlanması realdır. Danışıqlarda ciddi irəliləyiş ondan ibarət ola bilər ki, Ermənistan ilkin olaraq 5 rayonu boşaltmağa razılaşır. Bu, baş versə, sülh prosesi bərpa olunur, atəşkəsə riayət edilir, Azərbaycanın Ermənistanla münasibətlərinin nizamlanmasına başlanılır. Yox, bu baş verməsə, Ermənistan yenə də vaxtı uzatsa, Rusiya ona təsir etməsə, böyük ehtimalla, iyunun sonu və ya iyulun əvvəllərində cəbhədə vəziyyət yenə də gərginləşə, bu dəfə lokal döyüşlərin ağır artilleriya və aviasiya qüvvələrinin iştirakı ilə daha geniş miqyasa yayılmaqla hərbi əməliyyatlar başlaya bilər".

"Qarabağ münaqişəsinə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının müdaxiləsi imkansızdır. Bu təşkilat Dağlıq Qarabağda münaqişəyə müdaxilə edə bilməz. Hətta təşkilatın Azərbaycan-Ermənistan sərhədində gedən müharibəyə də müdaxilə etməsi imkansızdır. Təsəvvür edin ki, Azərbaycan tankları İrəvandadır. Bu zaman Qazaxıstan tanklarımı Azərbaycan tanklarına qarşı duracaq?" Bunu isə Rusiyanın tanınmış siyasi eksperti Aleksey Malaşenko Moskvanın Karnegi Mərkəzində Dağlıq Qarabağla bağlı keçirilən ekspert müzakirələrində deyib və növbəti dəfə Ermənistanın ümidlərini heçə endirib. A. Malaşenko əlavə edib ki, Azərbaycan ilk raundda Ermənistanı "nokdaun" vəziyyətinə saldı. Müzakirələrə Almaniyadan videogörüntü ilə qatılan rusiyalı politoloq, qafqazşünas Sergey Rumyantsev isə Dağlıq Qarabağda münaqişənin yenidən alovlanmasında təəccüblü heç nə olmadığını bildirib.

YENİ MÜSAVAT
N 84 (6405) 20 aprel 2016

**Əkrəm Əylisli Azərbaycan prezidentinə müraciət edib. Məlum aeroport qalmaqalına görə. Yaşını, xəstəliyini, qocalığını xatırladıb. Deyib ki, işin bu həddə çatacağını gözləmirmiş. O üzdən də İlham Əliyevdən xahiş edib ki, məsələyə müdaxilə etsin.**

# Yazıçı Əkrəm Əylislini bağışlayaqmı?

"Aeroport qalmaqalı"nın mahiyyətini oxucular yəqin bilir. Qısaca xatırladım ki, martın 30-da Əkrəm Əylisli Milan şəhərində ədəbiyyat festivalında iştirak etmək üçün ölkədən çıxmaq istəyib, lakin Sərhəd Xidmətinin əməkdaşları onun təyyarəyə minməsinə mane olublar.

Bizə çatan məlumata görə, Ə.Əylislinin ölkədən getməsinin gerçək səbəbləri haqda dövlətdə müfəssəl informasiya olub. "Yeni Müsavat"ın 16 aprel tarixli sayında "Əkrəm Əylislinin ölkədən buraxılmamasının şok sirri - "Nobel alıb, dönməyəcəkdi..." başlıqlı yazı dərc olunub (http://musavat.com/news/gundem/ekrem-eylislinin-olkeden-buraxilmamasinin-shok-sirri-nobel-alib-donmeyecekdi_340252.html).

Yazının özəti bundan ibarətdi ki, yazıçı festivala qatılmaq adı ilə Azərbaycanı tərk edib bir daha geri qayıtmayacaqmış. Sonra isə yazdığı "Daş yuxular" romanına görə öz ölkəsində təqib olunması səbəbindən Avropa ölkələrindən birindən sığınacaq alacaq, axırda da Nobel mükafatı ilə ödülləndiriləcəkmiş. Məlumatı redaksiyamıza verən mənbə iddia edir ki, bu üzdən də - bir qrup anti-Azərbaycan güclərinin əlində vasitə olmaması üçün hökumət Ə.Əylislinin ölkədən çıxışını əngəlləyib.

Yeri gəlmişkən, yazıçının hava limanında saxlanması və sonrakı proseslər barədə bəzi tənqidi qeydlərimi oxucularla bölüşməyi lazım bilirəm. Yaşı 80-ə çatan adamın 35 yaşlı gəncə yumruqla xəsarət yetirməsi barədə hüquq-mühafizə orqanlarının məlumatı çox qüsurludur. Elə yazıçı özü də bunu əsas arqument kimi dövriyyəyə buraxıb. Bizim müstəntiqlərin illərdir bu cür primitiv ssenarilər tərtib etməsi üzücüdür. Əgər dövlət marağı kiminsə ölkədən çıxışını yasaqlamağı tələb edirsə, o zaman zəhmət çəkin, bir az səviyyəli, inandırıcı bəhanələr tapın. Bəzən bizim hüquq-mühafizə orqanları qeyri-peşəkar və məsuliyyətsiz davranışları ilə istənilən suçluya, millətə, dövlətə xələl gətirən şəxsə ictimai rəğbət yaradır...

Əkrəm Əylislinin yazdığı "Daş yuxular" adlı kiçik həcmli roman onun özünü də işə salıb, Azərbaycana da ciddi problemlər yaradıb. Ə.Əylislidə kompleks var. O, mənsub olduğu xalqı, ölkəni sevmir, sevə bilmir. Üstəlik, bu sevgisizliyini, bəzi hallarda isə nifrətini yazdığı bədii əsərlərdə, verdiyi müsahibələrdə, girdiyi polemikalarda açıq büruzə verir. "Daş yuxular" isə onun Azərbaycana və azərbaycanlılara nifrətinin pik həddi sayıla bilər. Adam o əsərdə açıq şəkildə ermənilərin azərbaycanlılar tərəfindən qətlə yetirildiyini göstərib. Düşmən xalqın əzabkeş, bizim isə vəhşi, kültürsüz, qaniçən obrazımızı yaradıb. Bu əsər Əkrəm Əylislinin Azərbaycana xəyanət romanıdır.



Roman ətrafında ilk gündən başlayan qalmaqala öz mövqeyimizi bildirmişik. Ə.Əylislinin "Daş yuxular"ının Azərbaycana, onun bu gününə, sabahına ciddi zərbə olduğunu bildirmişik. Yenə də həmin mövqedəyik. Heç bir şöhrət, ad-san, mükafat ağlı başında olan adamı xalqına qarşı bu şəkildə təxribata həvəsləndirə bilməz. Lap deyək, ölkənə, təmsil olunduğun topluma nifrət edirsən, hardasa başa düşmək olar, hər kəs özünü sevgidə ifadə etməz ki. Nifrətdən enerji alıb yaşayan nə qədər xəstə insanlar var. Amma bunu düşmənə açıq rəğbət bildirişi ilə roman şəklinə salıb dünyaya duyurmana nə gərək? Axı sözün yazı forması yüz illərlə, min illərlə qalır, yaşayır, arxivlərdə saxlanır. 100 ildən çoxdur Azərbaycanla düşmənçilik aparan bir xalqın əlinə ideoloji silah verirsən.

Ə.Əylislinin bu təxribatı təkcə ölkəsinə nifrətdən qaynaqlanmır. O, həm də qarşısına Nobel mükafatı almaq məqsədi qoyub. Amma kimdi Azərbaycandan olan bir yazıçıya o mükafatı verən. Ana xətti azərbaycanlıların günahsız, dinc erməniləri qətlə yetirməsi olan bir romanla isə bu mükafatı qazanmaq mümkündür. Ortada Orxan Pamuk nümunəsi var. O, bir müsahibəsində türklərin erməniləri və kürdləri kütləvi şəkildə qətlə yetirdiyini iddia etdi. Sonra ölkəsində təqib edildi. Türkiyəyə buraxılmadı. Ardınca da Pamuk ödülləndirildi - Nobel aldı. Bizim düşmən qarşısında dilimizi gödək, başımızı aşağı edən bir yazıçının bu nüfuzlu mükafatı almasına ehtiyacımız varmı? Əsla!

Əkrəm Əylislinin nəvəsi yaşda əsgərlərin şəhid olduğu bu günlərdə "Daş yuxular" romanı adama daha çox toxunur. O gəncləri ermənilər öldürüb, həm də Azərbaycan torpaqlarında. Ə.Əylisli son olanlardan nəticə çıxarıb xalqından bu romana görə üzr istəməli idi. Fəqət adam hələ də özünü haqlı sayır. Onun prezidentə müraciətində bir məqam diqqətimi çəkdi. Sitat: **"Dünyanın siyasətə qarışmayan bir çox nüfuzlu nəşriyyatları tərəfindən bu əsər, məhz bədii-estetik mətn kimi, yüksək dəyərləndirilmiş və nəşr edilmişdi. Və mən ürəkdən sevinirdim ki, əsərim mövsümü millətçi maraqlara yox, varlığında, tarixən böyük humanist ideyalar və yüksək bəşəri amallar yaşadan Azərbaycan ədəbiyyatına xidmət edir".** Adam xalqını yazdığı əsərdə mədəniyyətsiz, qaniçən obrazında təqdim edib, sonra da deyir ki, dünyanın nüfuzlu nəşriyyatları bu romanı bədii-estetik mətn kimi dəyərləndirir. Dəyərləndirəcək təbii ki. Çünki əhalisi müsəlman-türk olan Azərbaycanın xeyrinə orda heç nə yoxdur. Olsaydı, əsla o əsərə yaxın duran nəşriyyat tapılmazdı.

Dünən prezident İlham Əliyev bir çox hərbçiləri təltif etdi. Onların içində aprelin əvvəlində şəhid olan hərbçilər də var, deyilənə görə. Əkrəm Əylisli də zamanında öz ölkəsinin ən ali mükafatları ilə təltif edilmişdi. 3 il öncə hamısını geri aldı dövlət başçısı. "Daş yuxular" romanına görə.

**Bəs tarixin mükafatı nə olacaq Əkrəm Əylisli üçün? Öz ölkəsinə, millətinə, bayrağına dönük çıxmış bir yazıçı, şair, elm adamı göstərin ki, o, tarixdə müsbət işarəylə qalsın, ehtiramla xatırlansın. Tarixin lənəti cəhənnəm atəşindən də betər olur...**

**Prezidenti deyə bilmərəm, şəxsən mən bir azərbaycanlı kimi öz adıma o yazıçını bağışlayammıram...**

❑ Azər AYXAN

# Mayda da əfv veriləcəyi xəbəri var

**May ayında yeni əfv sərəncamı imzalanacağı barədə xəbərlər yayılıb. Gələn ayın ya 10-da, ya da 28 mayda əfv veriləcəyi deyilir. Bununla ölkə iqtidarının siyasi məhbus məsələsini tamamən həll edəcəyi, Novruz əfvinə düşməyən, Avropanın diqqətində olan siyasilərin azadlığa buraxılacağı qeyd olunur.**

Əfv xəbərlərinin fonunda REAL sədri İlqar Məmmədovun və araşdırmaçı jurnalist Xədicə İsmayılın may əfvinə qədər məhkəmələrinin olacağı, iki məşhurun da həbsxana həyatı ilə vidalaşacaqları yayılan xəbərlər sırasındadır. Ötən aydakı əfvdə bir çox siyasinin azad edilməsinə baxmayaraq, hazırda həbsxanalarda ictimaiyyətin və beynəlxalq aləmin diqqətində olan tanınmış məhbuslar var. Onlardan Müsavat başqanının müavini Fərəc Kərimlini, NİDA-çı gənclər İlkin Rüstəmzadə və Əbdül Əbilovu, sabiq səhiyyə naziri Əli İnsanovu, AXCP üzvlərini və başqalarını qeyd etmək olar.

**Əfv Komissiyasının üzvü Əliməmməd Nuriyev "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, əfvin belə tezliklə verilməsi doğru sayılmır:** "Bu, cəza ilə bağlı məsələlərdə bəzi problemlərin yaranmasına səbəb ola bilər. Əlbəttə, çox arzu edərdim ki, əfv verilsin. Amma bu barədə hər hansı bir məlumatım yoxdur. Əfv Komissiyasına müraciətlər daxil olmaqdadır. Komissiyasının katibliyi daim işləyir. Müraciətlərlə bağlı araşdırma aparılır və müvafiq sorğular göndərilir. Müraciət etmiş şəxslərlə bağlı ətraflı məlumat öyrənilir. Müəyyən



**Əliməmməd Nuriyev:** "...Əfv Komissiyasının iclası ola bilər"



**Mirvari Qəhrəmanlı:** "May-iyun aylarında azadlığa çıxacaq siyasilərin..."

dövrdən sonra Əfv Komissiyasının iclası ola bilər. Amma bunun tarixini deyə bilmərəm. Çünki məlumatsızam. Bəzi şəxslərlə bağlı yenidən məhkəmələrin olacağını istisna etmirəm. Çünki məhkəmələr hakimiyyətin müstəqil qanadıdır. Müvafiq qərarlar qəbul edəcəklər".

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Mirvari Qəhrəmanlı bildirdi ki, siyasi məhbusların azad olunması prosesi başlayıbsa, onlar arasında ayrı-seçkilik etmək doğru deyil:** "Düşünürəm ki, İlqar Məmmədov və Xədicə İsmayılın məhkəmələrinin uzadılması daha çox müsbət göstəricidir. Hökumət əgər hansısa bir siyasi məhbusu azad etmək istəyirsə, öncəliklə cəmiyyətə mesajını göndərir. Mətbuata xəbəri sızdırmaqla göstərmək istəyir ki, belə humanist addım atıram. Məhkəmələrin uzadılması onu deməyə əsas verir ki, bu məhbuslarla bağlı müzakirələr gedir. Bütün siyasi məhbuslar cəmiyyət üçün önəm kəsb edirlər, onları ayırmaq düzgün deyil. Qarşıdan gələn aydan müəyyən gözləntilərimiz var. Müvafiq qurumlar 10 mayda əfv olacağını deyirlər. Amma əsas önəmli olan ölkəmizin müstəqillik günü ilə bağlıdır. Hökumətin humanist addımlar atması çox vacibdir. Müvafiq qurumlar artıq məhbusların azad edilməsi üçün ikili müraciət edirlər. Belə ki, ya siyasi məhbusların azad edilməsini, ya da yenidən məhkəmələrin keçirilməsini istəyirlər. Hökumətin hazırda beynəlxalq aləm tərəfindən də dəstəklənən siyasəti uzunmüddətli ola bilər. Bu siyasət yarımçıq saxlanılsa, yenə də beynəlxalq aləmdə bizə ziyan gətirər. Hərçənd ki, bu nüfuzun olmasına hazırda ciddi ehtiyacımız var. Təkcə 4 günlük müharibəni göstərmək kifayət edər. Bu baxımdan, hakimiyyətin bunları düşünəcəyini və may-iyun aylarında azadlığa çıxacaq siyasilərin sayının artacağını düşünürəm. Açığı, 10 mayda əfv gözləmirəm. Çünki tezliklə əfv olmaz. Amma mayın axırlarına qədər 2 və ya 3 məhkəmə prosesinin olacağına ümid edirəm. Ola bilər ki, bu məhkəmələrdə İlqar bəy və Xədicə İsmayıl azad olunsun. Beynəlxalq təşkilatlar mart ayından fəaliyyətlərinə necə başlayıblarsa, belə davam etmələri çox vacibdir. Verdikləri bəyanatlar əmr formasını daşımamalıdır. İşçi Qrupu hissə-hissə məhbusların adlarını Əfv Komissiyasına təqdim edir. Birdən-birə 50-60 nəfərlik siyahı vermək olmaz. Siyahımıza yenidən baxılacaq".

**Qeyd edək ki, mayın 3-də saat 10:30-da Ali Məhkəmədə Müsavat başqanının müavini Fərəc Kərimlinin hökmündən verilən şikayətə baxılacaq. Bu barədə musavat.com-a məhbusun atası Raqif Kərimli məlumat verdi:** "Aprelin 6-da Fərəclə görüşdük. Növbəti görüşümüz aprelin 21-də olacaq. Telefonla danışır, elə bir narahatçılığı yoxdur. Əfvlə bağlı elə bir fikri yoxdur. Ali Məhkəməyə hazırlaşır. Artıq prosesin günü müəyyən olub. Özü danışanda xəbər verdi ki, bildiriş gəlib, mayın 3-də 10:30-da məhkəməsi olacaq".

❑ Cavanşir ABBASLI



# Səfir dərddən içir

Zamin HACI
zaminhaci@gmail.com

**Siz onun varlığına şübhə edirdiniz, ancaq o açıldı! Metronun "Avtovağzal" stansiyasını deyirəm. Gör neçə ildir bu nəhəng, Ginnesin rekordlar kitabına görə əsrin tikintisi adını almış proje uca millətimizi intizarda saxlayırdı. 2012-də deyirdilər 2013-də açılacaq, 2014-də deyirdilər vəssalam, son tamamlama işləridir, 2015-in qışında "Avtovağzal" stansiyasına girəcəyik. Hətta bəzi şübhəli adamlar ortaya çıxmışdı, deyirdilər hökumətimiz orda metro stansiyası yox, nəsə başqa məxfi obyekt tikir. Bəlkə də yeri qazıb Avstraliyadan çıxacağıq. (Bunun ticari-geopolitik səbəbləri haqda başqa abzasda). Ola bilər Qarabağa tunel qazırıq, ərazi bütövlüyümüz bu cür bərpa ediləcəkdir. Xarici jurnalistlər yazırdılar ki, Azərbaycan ordan Panamaya ofşor metro düzəldir. Bir versiya isə cəhənnəmin dibini axtarıb tapmaq cəhdimizlə bağlı idi.**

Söhbətlər çox idi, ancaq niyə başınızı ağrıdım, əsas odur həmin stansiyanın qırmızı lenti dünən kəsildi. Arzu edirəm siz o stansiyadan həmişə xeyir işlərə gedəsiniz! Sən o stansiyanın yanındakı yetim, ayağı sürüşkən avtovağzalın canı, bir nəzir ver! O stansiyanın sağ əli olsun Bakı-Tiflis-Qars dəmir yolunun relslərinin üstünə! Çünki bir dənə gedər-gəlməz proje də həmin marşrutun tikintisidir. İndiyə qədər əjdaha kimi ağzını açıb 1 milyard manat pulumuzu udub, di gəl, nəinki Qarsın qalasını, heç Türkiyə sərhədinin dirəklərini görə bilməmişik. İnşallah, bir gün qismət olar. Hərçənd mümkündür ki, o dəmir yolu tikilənə qədər insanlar qanad açıb uçmağı öyrəndilər, heç kim daha dəmir yolu qatarına minmədi. Əslində indinin özündə də belədir. Örnək üçün, bu saat qatarla Bakıdan Tiflisə getmək yalan olmasın, Bakıdan Budapeştə uçmağın qiymətinədir. Dünyada elə ucuz təyyarə reysləri var, imkan vermirlər gözümüzü açaq, Azərbaycan dünyaya Günəş kimi doğsun!

Gələk Avstraliya məsələsinə. *(Xoşum gəlir belə cümlələrdən. Götürək elə Yaponiyanı. Norveçə nəzər salsaq. Danimarkaya baxsaq. Çox ləzzətli alınır. Bir anlığa da olsa elə bil həmin yerlərə gedirsən)*. Orda yerli qəzet Azərbaycan səfirliyini biabır edən yazı veribdir. Yazıblar ki, Azərbaycanın Avstraliyadakı səfirliyi 2000 litr pivə, 1100 litr şərab, 520 litr spirt və 40000 ədəd siqareti vergisiz almaq üçün Avstraliya hökumətinə müraciət edibdir. Sən demə, səfirlik işçilərinin bələnçik müəyyən malları vergisiz almaq hüququ varmış. Ancaq hökumət şübhələnib ki, 5 işçisi olan səfirlik bu qədər araq və siqareti nə edir, bəlkə bunları dükan açıb satmaq istəyirlər.

Doğrudan, ilk baxışdan şübhəli əməliyyatdır. Heç bilmirəm Avstraliya hökuməti səfirliyimizə həmin malları almağa icazə veribmi. Gərək versinlər. Çünki başqa millətlərə nisbətdə bizim bir səfir gündə beş qutu siqaret çəksə, on litr araq içsə yenə azdır! Çünki bizim Qarabağ dərdimiz vardır! Necə deyərlər, elə bil kefimizdən içirik. Dərdimiz çoxdur!

Özü də mən xəritədə Avstraliyanı kəşf elədim, məlum oldu onlardan baxanda bizim Azərbaycanımız tərsinə görünür. Səfirimiz ana vətəninə ayaqlarının altında, hardasa planetin o üzündəki bir yer kimi baxırsa, içməsin neyləsin? Dərdin kəlləmayallağı pis olur.

Bundan başqa, hara baxırsan əcaib heyvanla doludur. Kenqurunun biri kisə ilə gəzir, sanki rüşvətxor gömrük məmurudur. Başqa heyvan ördəkburun adlanır, ancaq ördəkdən çox Əli Kərimlinin evinin qabağında mitinq eləyən gözlüklü gənc qızlara bənzəyir. Mal-heyvan o qədər çoxdur ki, danaları kəsmək üçün vertolyotla çöldən qovub yığırlar. Belə yerdə səfir olandan sonra necə ayıq başla yaşamaq olar? Ağlın hər şeyin düz olduğu Bakı kimi yerlərə getməsin. Avstraliyada səfir işləmək ağırdır.

Gəlin biz ASAN-xidmətə müraciət edək, Avstraliyadakı səfirliyimizə zoğal ağacı, tut ağacı və sair başı xamırlılardan tədarük etsinlər. Bizi qarşıda gərgin döyüşlər gözləyir.

# ABŞ-ın kəşfiyyat peykləri Qarabağdakı döyüşləri çəkməyibmiş - səbəb

**Azərbaycanla Ermənistan arasında Dağlıq Qarabağa görə iki onillikdən çox davam edən münaqişə aprelin əvvəlində alovlandı. Buna cavab olaraq Rusiya prezidenti Vladimir Putin hərəkətə keçdi və Moskvada hərbi əməliyyatların dayandırılmasına dair razılaşma əldə olundu, ardınca Rusiya prezidenti özünün yüksək rütbəli nümayəndələrini regiona göndərdi.**

## "The Financial Times": "Həmin günlər ABŞ-ın regiondakı bütün casus peykləri Ukrayna və Suriyaya yönləndirilmişdi"

Virtualaz.org xəbər verir ki, bu sətirlər nüfuzlu "The Financial Times" qəzetinin Qarabağdakı 4 günlük müharibə barədə dərc etdiyi növbəti, sonuncu məqalədəndir. Qəzetin yazdığına görə, analitiklər və diplomatlar deyirlər ki, Moskvanın bu fəallığı onun regionda mövqelərinin xeyli möhkəmlənməsinə səbəb oldu. "ABŞ-ın sakitcə müşahidə etdiyi bir vaxtda Putin vakuumu doldurdu, Bakıda və İrəvanda belə təəssürat yaratdı ki, onlar tək qalıblar və Putin şəhərdə əsas oyunçudur"-ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Metyu Brayza "Financial Times"ə açıqlamasında deyib.



Qəzet yazır ki, Rusiyanın vasitəçiliyi ilə hərbi əməliyyatlar dayandırılandan sonra ATƏT-in Minsk Qrupu həmsədrləri toplaşıb, vasitəçilər regiona səfər ediblər. Azərbaycanın Londondakı səfiri Tahir Tağızadə qəzetə açıqlamasında Qərbin baş verənlərə laqeyd qalmasını tənqid edib. Bildirib ki, bütün bu baş verənlər indiyədək beynəlxalq birliyin münaqişəni həll etməkdə qətiyyətsizlik göstərməsinin nəticəsi idi.

**"Doğrudan da amerikalı diplomatlar şəxsi söhbətlərdə etiraf edirlər ki, Obama administrasiyasının son aylarında Vaşinqtonun Dağlıq Qarabağa dair hansısa yeni diplomatik həmlə etməyə həvəsi yoxdur. Bir Qərb diplomatı isə Dağlıq Qarabağda gedən döyüşlərə dair peyk çəkilişlərinin təqdim olunmasına dair xahişimizə cavab olaraq kədərlə çiyinlərini çəkir. Deyir ki, həmin günlər ABŞ-ın regiondakı bütün casus peykləri Ukrayna və Suriyaya yönləndirilmişdi"-qəzet yazır.**

# Suriyada sülh ümidləri dəfn edilir

## Böyük dövlətlərin və region ölkələrinin anlaşa bilməməsi münaqişənin danışıqlar yolu ilə həlli imkanlarını azaldır, tərəflər döyüş meydanında üstünlüyə nail olmaq istəyir

**Aprelin 18-də İsveçrənin Cenevrə şəhərində başlayan Suriya danışıqlarının ikinci mərhələsi elə başladığı gün dayandırıldı. Müxaliflər atəşkəsin pozulması, humanitar yardımın çatdırılmasında yaranan əngəlləri əsas gətirərək danışıqlar prosesindən çəkildiyini bəyan etdi. Axşam saatlarında bu qərarı BMT-nin Suriya özəl təmsilçisi Stefan de Mistura da qərarı təsdiqləyib, ancaq əlavə edib ki, müxaliflər Cenevrədə qalaraq BMT formatından kənar danışıqlarda iştirak edəcəklər.**



Bu arada məlum olub ki, danışıqların dayandırılmasının "siyasi" səbəbləri də olub. Belə ki, tərəflər növbəti dəfə Bəşər Əsədin taleyi, daha doğrusu, keçid hökumətində təmsil olunub-olunmayacağı mövzusunda da anlaşa bilməyib. Müxaliflər və dəstək ölkələr - Türkiyə, Səudiyyə Ərəbistanı və Qatar kimi ölkələr keçid hökumətində Əsədin olmasına qarşıdır. Rəsmi Dəməşq isə Əsədin müzakirə mövzusu olmayacağını bildirir. Bununla da əslində tərəflər prinsipial məsələdə anlaşa bilməyib və təbii olaraq danışıqlar dayandırılıb.

Əl-Cəzirə telekanalının məlumatına görə, müxaliflərin danışıqların dayandırılması qərarından həmən sonra Azad Suriya Ordusu və Əhrar əş-Şam qruplaşması hökumətin atəşkəsə riayət etmədiyini əsas göstərərək yeni əməliyyat qərargahı qurduqlarını bəyan edib. Eyni vaxtda müxalif qüvvələrin Suriyanın şimalında yerləşən Laziqiyyə şəhərinə hücum edib.

Dünən sabah saatlarında isə hökumət qüvvələri Hums şəhərini bombalamağa başlayıb. Hava zərbələri nəticəsində dağıntılar olduğu, dinc insanların da öldüyü bildirilir. Qeyd edək ki, hələ bazar günü müxalifətin danışıqlar heyətindəki nümayəndəsi Əsəd Zubi hökumətin atəşkəsi pozduğunu əsas göstərərək müxaliflərə savaş çağırışı etmişdi. Eyni zamanda İslam Ordusu qruplaşmasının danışıqlarda iştirak edən lideri Məhəmməd Alluş tərəfdarlarına müraciət edərək hökumət qüvvələrinə hücum etməyə çağırıb.

Son hadisələr göstərir ki, tərəflər əslində prinsipial məsələlərdə anlaşa bilmirlər və ya anlaşmaya hazır deyillər. Danışıqların bitməsi ilə əməliyyatların yenidən başlaması isə bütün tərəflərin əsas hədəfinin sahədə üstünlük qazanmaq istəyi ilə bağlıdır. Hər iki tərəf məsələnin indiki vəziyyətdə danışıqlar yolu ilə həll olunacağına inanmır. Çünki hazırda tərəflər arasında təxmini də olsa güc bərabərliyi və ya mövqe tarazlığı var. Bu vəziyyətdə isə hansısa tərəfin geri çəkilib güzəşt edəcəyi inandırıcı deyil. Üstəlik, prinsipial məsələyə çevrilmiş Əsədin, yəni əslində Bəəs Partiyasının taleyi anlaşmanı çətinləşdirir.

İndi Suriyada durum təxminən Qarabağ münaqişəsində olduğu kimidir, tərəflərdən hansısa güc üstünlüyü əldə edib qarşı tərəfi danışıqlara məcbur etməlidir. Əks halda, istənilən danışıq və ya müzakirə müsbət nəticə verməyəcək. Bu səbəbdən də hər iki tərəf danışıqların başa çatmasından sonra silahları işə saldı.

Plan isə çox sadədir: Hər iki tərəf cəbhədə üstünlüyü əldə edib, daha çox strateji nöqtələrə nəzarət etmək və üstün tərəfə çevrilmək istəyir. Bu isə o deməkdir ki, Suriyada savaş yalnız bir tərəfin qalib gələcəyi və ya qələbəyə yaxın olacağı təqdirdə bitəcək və tərəflər danışıqlar masasına əyləşib anlaşacaqlar. Hələlik savaş yenidən bərpa olunub və görünən odu rki, hər iki tərəfin qalib gəlmək istəyi səbəbi ilə daha da şiddətlənəcək.

Bu arada, aprelin 18-də Rusiya və Amerika prezidentləri arasında telefon danışıqları Suriya münaqişəsinə həsr olunub. Putin və Obama Suriyada atəşkəsin dəstəklənməsi (!?), atəşkəsə riayət edilməsi üçün tərəflərə nəzarət edilməsi, eyni zamanda xaricdən hərbi yardımların dayandırılması, Türkiyə sərhədlərinin terrorçuların keçidi üçün möhkəmləndirilməsi barədə danışıblar.

Ancaq iki liderin Türkiyə sərhədləri barədə fikirləri Ankarada sərt təpki ilə qarşılanıb. Ötən gün Avropaya gedən Türkiyə baş naziri Əhməd Davudoğlu jurnalistlərə bildirib ki, Türkiyə Suriya sərhədlərini yalnız Suriyadan gələn qaçqınlar üçün açıb və hazırda sərhədlər nəzarət altına alınır. Eyni zamanda Davudoğlu əlavə edib ki, Türkiyə sərhədləri ilə bağlı son qərarı Türkiyə dövləti verə bilər, hər hansı başqa ölkə Türkiyə sərhədlərini müzakirə etmək həddində deyil.

Bu isə Ankara və Vaşinqton arasında da Suriya məsələsində anlaşılmazlıqların hələ də qaldığını göstərir. Görünür, Vaşinqtonun müxaliflərə dəstəyin dayandırılması mövzusundakı mövqeyi Ankarada narahatlıqla qarşılanıb, Suriya böhranı ilə bağlı iki ölkə arasında fikir ayrılıqları hələ də qalır. Bu vəziyyət isə Suriya böhranının siyasi həlli ümidlərini daha da azaldır. Yeri gəlmişkən, aprelin 18-də Suriyanın Fransa müstəmləkəsindən azad olduğu müstəqillik günü münasibətilə Bəşər Əsədə teleqram göndərən Rusiya prezidenti Putin, terrorla mübarizədə sona qədər onu dəstəkləyəcəyini qeyd edib. Beləliklə, ümumi mənzərə Suriyada atəşkəs və sülh danışıqları ümidləri xeyli azaldır. Ən azı yaxın dönəm üçün.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 84 (6405) 20 aprel 2016

**Azərbaycan ordusunun son uğurlu əməliyyatı 20 ildən bəri həm Ermənistanda və həm də bütün dünyada hakim olan, mövcud duruma söykənmiş proqnozları, baxışları, planları, arzuları alt- üst etdi və onların çoxunun əsassız olduğunu sübut etdi. İlk növbədə erməni ordusu haqqında yaradılan mif dağıdıldı və sonrakı hadisələr onun ordusunun yarı-yaraqlı dəstələrdən ibarət olduğunu göstərdi".**

# Konfliktoloqdan mühüm Qarabağ təklifləri

## Elxan Mehdiyev: "Ermənistan TV-ləri ermənilərin Gürcüstan sərhədindən necə qaçdığını göstərirdi"

**Konfliktoloq Elxan Mehdiyev** Qarabağ cəbhəsində baş verənləri və hazırkı situasiyanı şərh edərkən "Yeni Müsavat"a bunları bildirdi. Ekspertin sözlərinə görə, düşmən səngərlərinə gələn yaşlı könüllülərin gənc əsgərlərə ruh verməsi onların həqiqətən 90-cı illərin düşüncələrində qalmasına sübutdur: "Həmin günlər Ermənistan-Gürcüstan sərhədindən tələm-tələsik qaçan ehtiyatda olan keçmiş əsgərləri Ermənistan TV-ləri nümayiş etdirdi. Belə bir halda, Azərbaycan rəhbərliyinin əməliyyatları tezliklə dayandırmasının nə dərəcədə səhv olduğunu deyə bilərik. Əməliyyatın məhdud miqyasda aparılıb, tezliklə dayandırılması düşməni ağır məğlubiyyətdən xilas etdi. Erməni tərəfi siyasi-diplomatik səhnədə izolə edildiyini ilk dəfə praktiki şəkildə gördü və anladı. Ümumləşdirmə göstərir ki, dünya birliyi, həm Rusiya, həm Avropa və həm də Amerika Azərbaycanın addımını dəstəkləyib. Buna diplomatik dildə sakit dəstək (tacit support) deyirlər. Ermənilərin müttəfiqlik çağırışına onun arxalandığı nə Rusiyadan, nə də KTMT ölkələrindən dəstək gəlmədi. Avropa və Amerikadakı muzdlu parlament üzvlərinin bəyanatları təbliğatdan başqa heç nəyi həll etmir. Ermənilərin çığır-bağır salması onun təkləndiyinin və məğlubiyyətinin əlamətidir. Beynəlxalq birlik və beynəlxalq təşkilatlar bu qənaətdədirlər ki, Azərbaycan ordusunun bu əməliyyatı nəticəsində ermənilər, yumşaq desək, hərbi və siyasi baxımdan hansı vəziyyətdə olduqlarını düşünməyə məcbur olacaqlar. Beynəlxalq birlik, Azərbaycanın işğalla barışmayacağı qənaətindədir. Ordunun bu zərbəsi 1 apreldən öncə işğala olan beynəlxalq münasibəti tam dəyişib, ya real danışıqlar, ya da müharibə ön plana çıxıb, həmsədrlərin oynadıqları "proses" bitmişdir".



**"İndiki qısa zaman Azərbaycanın tarixi üçün ən həlledici dövr sayıla bilər"**

**E.Mehdiyev hesab edir ki, bu situasiya həm həmsədrlərə, həm də erməni tərəfinə məsələnin ciddiliyini hər an gözünün önündə tutaraq hərəkət etmək mühitini yaradıb:** "Beynəlxalq baxış tezliklə ermənilərin intensiv real danışıqlara girib Azərbaycanın ilkin tələbi olan işğal edilmiş ərazilərdən çıxması məsələsini müzakirə etmək qənaətidir. Bu qənaəti beynəlxalq münaqişələrin nizamlanması təcrübəsi deyir. Azərbaycan tərəfinin burada "mən atəşkəsi pozmamışam, sadəcə, təxribatlara cavab vermişəm" arqumentləri heç də vəziyyəti dəyişməyə kömək edən amil deyil. Çünki o zaman gündəmdə olan inam yaratmaq və insidentləri araşdırmaq mexanizmlərinə Azərbaycanın da "bəli" deməsi rasional olaraq yenidən ortaya çıxacaq. İkincisi, Azərbaycanın gizlədəcəyi və ya cinayət işlətdiyi bir hərəkət yoxdur. Azərbaycan mövcud işğalla barışmır və barışmayacaq. Bəyan edilməlidir ki, "biz bu addımı atmaqla ermənilərə dinc yolla torpaqlardan çıxmaları mesajını vermişik və torpaqlarımız üçün bu savaşa hazır olduğumuzu bildirmişik". Ermənilər 22 ildir danışıqlar adı altında torpaqları ilhaq etmək, məskunlaşdırmaq, hərbi bazalara çevirmək və Azərbaycan xalqına divan tutmaq siyasətini yeridib və artıq bütün işğal ərazisini öz xəritəsinə salıblar. Bütün bunları qeyd etməklə demək lazımdır ki, indiki dönəmdə Azərbaycan tərəfi danışıqlara cəhd edən və ortaya öz tələblərini qoyan tərəf olmalıdır. Bu tələblərin çoxu gedən danışıqlarda öz əksini tapıb, amma indiki vəziyyət əvvəllər qəbul edilməyən tələblərin qəbul edilməsi üçün münbit şərait yaradır.

Azərbaycan indiki hərbi və ən önəmlisi, Azərbaycanın xeyrinə olan beynəlxalq mühitdən istifadə etməlidir. Bu işin gecikdirilməsi erməni təbliğat maşınının gücləndirilməsinə və ən əsası erməni ordusunun yeni müasir silahlarla təmin edilməsinə aparacaq. Hələ ki beynəlxalq və regional mühit bizim xeyrimizədir, bu şansı itirməmək lazımdır. Digər tərəfdən, ortaya yeni qüvvələri qoşmaq - İslam Təşkilatı Konfransı və ya onun tərəfdarlarını - heç də bu işin irəli getməsinə kömək etməz. Yaranmış bu kövrək siyasi sakit dəstəkdən faydalanmaq və vasitəçilərlə işi ancaq torpaqlardan çıxmaq tələbi üzərində qurmaq lazımdır".

**Ekspert hesab edir ki, indiki dönəmdə eyforiyaya qapılmaq və gözləmək Azərbaycanın əleyhinə işləyəcək:** "Ən önəmlisi burada ordunun ancaq öz səhvlərini və üstünlüklərini dərin analiz etməsi lazımdır. Unutmaq olmaz ki, ermənilər hazırda ancaq Azərbaycan ordusunun zəif nöqtələrini araşdırmaqla məşğuldurlar. Azərbaycan ordusu əsasən müasir texnologiyaya əsaslanan texnikaya yenidən üstünlük verməli, balansın yaranması üçün yeni müasir silahlar almalı və əsasən də düşmənin arxa cəbhəsindki ölümcül silahları tapıb onları məhv edən texnologiyaya malik olmalıdır. Azərbaycan ordusu 1-ci Dünya müharibəsinin mirası olan və kütləvi qırğınlara gətirən səngər savaşına "əlvida" deməlidir. Düşmən isə daha çox bu istiqamətə fikir verir və bizi də ona çəkmək istəyir".

**E.Mehdiyev Rusiyanın son davranışlarını da şərh etdi:** "Rusiya rəhbərliyi apardığı silah siyasətini açıq şəkildə izah edib. Azərbaycan tərəfi bundan nəticə çıxarmalı və bu kontekstdə bu aparılan balansı pozmaq üçün ənənəvi ölkələrdən müasir silahları almaqda davam etməlidir. Ermənistanda gedən təbliğat və atəşkəs xətindəki hazırlıqlar və erməni tərəfin təcili müasir silahlar almaq səyləri və əllərində olan "Smerc" və TOS-ları atəşkəs xəttinə göndərməsi düşmənin heç də dinc yolla torpaqlardan çıxmaq niyyətində olmadığını bir daha sübut edir. Məncə, Azərbaycan danışıqların nə qədər ciddi və real olduğunu ilk görüşdən anlayacaq. Azərbaycan siyasi rəhbərliyi indidən böyük dövlətlərin, həmsədr ölkələrin və Almaniyanın rəhbərliyi ilə danışıqlar aparmalı və düşmənin izolyasiyanı dərinləşdirməlidir. İndiki qısa zaman Azərbaycanın tarixi üçün ən həlledici dövr sayıla bilər".

❑ Elşad PAŞASOY



## Dünya kürdləri arasında məşhur telekanal Azərbaycanda

### Tahir Süleyman: "Bu, milyonlarla dünya kürdlərinə Qarabağ həqiqətlərini çatdırmaq, erməni yalanlarını ifşa etmək üçün tribunadır"

**Şimali İraq Kürd Administrasiyasının mərkəzi şəhəri Ərbildən yayınlanan "Rudaw TV" telekanalının əməkdaşları Dağlıq Qarabağ cəbhəsində aprelin əvvəllərində baş verən müharibənin nəticələri, Qarabağ reallıqlarını yaxından öyrənmək məqsədilə Azərbaycana gəliblər. Artıq bir neçə gündür Azərbaycanda reportajlar hazırlayan telekanal əməkdaşları dünən "Yeni Müsavat" qəzetinin redaksiyasında olublar və Qarabağ həqiqətləri, cəbhədə son əməliyyatlarla bağlı qəzetin əslən Qarabağdan olan əməkdaşlarından müsahibə alıblar. "Rudaw TV"nin reportyorlarının Azərbaycana gəlişi Azərbaycan Kürdləri İctimai Birliyinin sədri, "Diplomat" qəzetinin baş redaktoru Tahir Süleymanın təşəbbüsü ilə həyata keçib. Bu barədə reportyorlara bələdçilik edən Tahir Süleyman "Yeni Müsavat"a məlumat verdi.**

T.Süleyman qeyd etdi ki, "Rudaw TV" İraqın Kürdüstan bölgəsinin baş naziri Neçrivan Bərzaniyə məxsus rəsmi telekanaldır. Bu telekanal təkcə İraqın Kürdüstan bölgəsində deyil, dünyanın hər yerindəki yaşayan kürdlər tərəfindən izlənilən, populyar telekanaldır. İngilis, rus, ərəb və kürd dillərində yayınlanır. Belə bir telekanalda Azərbaycan reallıqları, Dağlıq Qarabağ həqiqətləri, Azərbaycanın Dağlıq Qarabağ münaqişəsində haqlı mövqeyinin təbliği çox vacib ver mühümdür: "Belə bir təbliğat tribunasının Azərbaycana yer ayırması çox böyük əhəmiyyətə malikdir. Azərbaycan dövləti bir sıra səbəblərdən Ərbildə və miyonlarla kürdün yaşadığı digər bölgələrdə iş aparmaq, Azərbaycanın bir nömrəli məsələsi olan Qarabağ məsələsi ilə bağlı təbliğat aparmaq kimi mühüm işi indiyə qədər aparmayıb. Yaranmış boşluqdan ermənilər istifadə edərək Azərbaycan əleyhinə təbliğat aparıblar, Qarabağ məsələsində guya ermənilərin haqlı olduğunu insanların beyninə yeritməyə çalışıblar. Bəzi hallarda buna nail də olublar. Bu baxımdan da hesab edirəm ki, dünya kürdləri arasında tanınmış bir telekanal bizim üçün vacib bir tribunadır. Biz bu tribunadan Azərbaycanın haqq səsinin, əsl həqiqətin necə olduğunun çatdırılması üçün istifadə etməliyik. Telekanalın reportyorlarının Azərbaycana gəlişi bizim üçün belə bir imkanı yaradıb. Artıq onlar son bir neçə gündə Ermənistandan və Qarabağdan qovulan çoxlu sayda qaçqın və məcburi köçkünlərdən reportajlar hazırlayıb. Qarabağ problemi, onun həlli yolları ilə bağlı politoloqlardan, jurnalistlərdən müsahibələr alıblar. Aprelin əvvəllərində şəhid olmuş bir neçə hərbçimizin dəfn və yas mərasimlərindən reportajlar hazırlayıblar, Azərbaycan xalqının öz qəhrəman şəhidlərinə necə sayğı ilə yanaşdıqlarını göstərən videomateriallar çəkiblər. Onlar eyni zamanda Azərbaycanda yaşayan bütün millətlərin-azərbaycanlıların, kürdlərin, talışların, ləzgilərin, tatların və digərlərinin mehriban şəraitdə yaşadıqları, vətəninin müdafiəsində birgə iştirak etdikləri, Ermənistanın bu millətlərin hamısına düşmən kəsildiyi barədə də reportajlar hazırlayıblar. Bu telekanalın Azərbaycana gəlişi və hazırladığı materiallar yüz minlərlə tamaşaçısına Azərbaycan həqiqətlərinin çatdırılmasında, erməni yalanlarının ifasında mühüm rol oynayacaq".

**T.Süleyman bəyan etdi ki, Azərbaycan bundan sonra da bu telekanaldan bir təbliğat tribunası olaraq istifadə etməyə çalışmalıdır:** "Artıq körpü qurulub və bizə bu körpüdən davamlı yararlanmaq qalır. Yaxşı olar ki, jurnalistlərdən ibarət qrup dövlətin dəstəyi ilə bir müddət sonra Ərbilə səfər etsin. Bu cür səfərlər reallaşsa, orada "Rudaw TV"yə də gedilə və Azərbaycanın təbliği, Qarabağ məsələsində haqlı mövqeyimizin birabaşa təbliği həyata keçirilə bilər".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 84 (6405) 20 aprel 2016



# Gəlməsələr, gətirəcəyik!..

Zahid SƏFƏROĞLU
zsafaroglu@gmail.com

**Ermənistan əhalisinin 76%-i (!) kasıblıq həddində yaşayır. Bunu biz yox, Dünya Bankının hesablamaları deyir. Qurumun dəyərləndirməsinə görə, işğalçı ölkənin əhalisi gündə 5 dollardan da az xərcləyir ki, bu da kasıbçılıq həddi sayılır.**

Ermənistan hökuməti isə rəqəmin 30% olduğunu iddia edir. Hətta 30% də böyük rəqəmdir, hərçənd biz təbii ki, nüfuzlu beynəlxalq maliyyə qurumunun sənədini mötəbər saymalıyıq...

Ermənilərin belə acınacaqlı durumunun baş səbəbi şəksiz ki, Qarabağa görə işğalçı ölkənin Azərbaycan və Türkiyə ilə apardığı düşmənçilik siyasəti, bu iki dövlətə qarşı ərazi iddiasından dolayı illərdir yaşadığı izolyasiya durumudur. Nə qazandı erməni xalqı bu münaqişə ilə, əsassız ərazi iddiaları ilə?

Ancaq səfalət, didərginlik, miskin həyat, qonşu və uzaq ölkələrə səpələnmək taleyi, böyük regional layihələrdən və inteqrasiyadan kənarda saxlanmaq, iqtisadiyyatın rüşeym halında qalması, suverenliyi bütünlüklə itirib Rusiyanın vassalına və marionetinə çevrilmək kimi acı və perspektivsiz bir aqibət.

Vassalın isə ağa yanında xətir-hörməti, nüfuzu olmaz, sözü keçməz - müti olduğu üçün. 4 günlük müharibədə ermənilər buna bir daha əmin oldular - Rusiya onların məğlubiyyətini seyr eləməklə kifayətləndi! İndi Kremlə qarşı etirazlar olsa da, Rusiya yenə əndişədə deyil. Düz edir, çünki bilir ki, əhalisinin 76%-i dilənçi kökündə, acından ölən cırtdan Ermənistan onun regiondakı maraqlarına təhlükə kəsb edə bilməz, qışqırıb-qışqırıb axırda sakitləşəcəklər.

Gerçəkdən də, işğalçının indiki hikkələri fonunda ayrı məqbul yolu yoxdur. Ayrı yol - Rusiyanın Ermənistanın arxasından tamamilə çəkilməsidir ki, bu, ona baha başa gələ bilər: o halda nəinki Dağlıq Qarabağ əldən çıxar, üstəlik, Ermənistan adlı qondarma dövlətin varlığı sual altına düşər...

Hərçənd, yaxşı ki, az sayda da olsa, Ermənistanda realist düşüncəli adamlar var və belə bir fəlakətli sonluğu görə bilirlər. Ona görə "yaxşı ki", onlar heç olmasa, Ermənistan adında dövlətin qalması üçün Qarabağ məsələsində güzəştin vacibliyini anlayırlar.

"Ermənistan iqtisadi cəhətdən Azərbaycandan geri qalır və onun inkişafını izləyə bilmir. Buna görə biz Qarabağ məsələsində təcili olaraq güzəştə getməliyik. Nə qədər gec deyil, daha az itki ilə bu prosesi başa çatdırmalıyıq". Bunu tanınmış erməni siyasi şərhçilərindən biri - Yeqiazar Ayntabsi srağagünkü şərhində yazıb. Bir başqa tanınmış politoloq İqor Muradyan isə hesab edir ki, "DQR" adlı erməni dövləti xülyasından qurtarmaq zamanıdır.

Doğrudan da əhalisinin 3/4-ü acından ölən, iqtisadiyyatı dağılan, özü isə sürətlə boşalan və 4 günlük müharibədən sonra bir az da sürətlə boşalacaq, ordusuna çağırışçı tapmayıb qızları səfərbər edən, xarici sərhədlərini belə rusların qoruduğu Ermənistanmı Azərbaycanla müharibə aparacaq - əgər Rusiya da işğalçının yerinə savaşmaq niyyətində deyilsə? Bu ki, özünə qəsd, siyasi suisid olar.

Qalır bu sadə həqiqətin ermənilər tərəfindən kütləvi dərki. Vaxt gedir. Azərbaycan ordusunun blits-zəfərindən və qulaqburmasından sonra zaman artıq onlara işləmir. İndi ermənilərin önündə iki yol, bir seçim var - ya vassalı olduğu Rusiya ilə birgə cəhənnəmə doğru inamla addımlamaq, ya da nə qədər gec deyil, ikinci erməni dövləti xülyasından əl çəkib, öz əsas qonşuları ilə anlaşmaq, iki əsrlik ədavətə son verib ağla gəlmək.

Ancaq bundan ötrü ən əvvəl erməni rəhbərlərinin, separatçı liderlərin ağla gəlməsi lazım. Gələcəklərmi? Gəlməsələr, Azərbaycan ordusu gətirəcək...

---

**Dünyaya baxışı, elinə, obasına, habelə vətəninə layiqli övlad olması ilə fərqlənən, hər yerdə ağsaqqallığı və ziyalılığına hörmət və ehtiram göstərilən nadir şəxsiyyətlər haqqında xatirə yazmaq çətin olduğu qədər də şərəflidir. Fəqət elə insanlar var ki, onların yüksək insani dəyərlərini, ictimai-siyasi mövqeyini və mənsub olduqları nüfuz dairəsini lazımınca əhatə edə biləcək fikir söyləməyi kiçik bir xatirə yazısına sığışdırmaq demək olar ki, ən azından ədalətsizlik olardı.**

# Elm fədaisi, vətən təəssübkeşi, mərdlik simvolu

## Professor Əhməd Həsənovun əziz xatirəsinə



Ancaq uzun illər yanında olduğun, onun həyat tərzinə və şəxsi keyfiyyətlərinə, insanlarla ünsiyyətinə, bədii estetik, elmi təfəkkürünə bələd olduğun, ilk baxışda isə zəhmli və ciddi görünsə də çox sadə və təvazökar bir insan haqqında bildiklərimi yazmamaq da düzgün olmazdı.

Əhməd Murad oğlu Həsənov məhz elə insanlardandır ki, haqqında ibrətamiz fikir söyləməyə ehtiyac duydum. Əhməd müəllimin elmi zəkası milli və maarifçilik düşüncələri onu təbii olaraq vaxtilə elmi kadrlara, sadəcə olaraq, mütəxəssislərin hazırlanmasında müstəsna əhəmiyyəti olan Azərbaycan Kənd Təsərrüfat İnstitutuna, yəni indiki Aqrar Universitetə gətirdi və ondan sonra demək olar ki, bütün həyatını pedaqoji fəaliyyətlə bağlı yaşadı.

Əhməd Həsənov keçən əsrin əvvəllərində, yəni 1926-cı ildə Tovuzun Qaraxanlı kəndində dünyaya göz açıb. Xatınlı kəndində orta məktəbi bitirib. Təhsilini Qazax Müəllimlər İnstitutunun tarix və dil-ədəbiyyat fakültəsində, Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinin fəlsəfə şöbəsində davam etdirərək fərqlənmə diplomu ilə bu təhsil ocağını bitirib.

Əhməd müəllim bundan sonra H.Zərdabi adına Kirovabad Pedaqoji İnstitutunda (indiki Gəncə Dövlət Universiteti) müəllim işləyib, 1958-ci ildə fəlsəfə elmləri namizədi alimlik dərəcəsi, 1959-cu ildə dosent adını alıb. 1959-cu ildən S.Ağamalıoğlu adına Azərbaycan Kənd Təsərrüfat İnstitutunda Marksizm-leninizm kafedrasının müdiri (1958-1964), fəlsəfə və elmi kommunizm kafedrasının müdiri (1964-1975), fəlsəfə və politologiya kafedrasının müdiri işləyib (1984), ömrünün sonunadək fəlsəfə və tarix kafedrasına rəhbərlik edib. O, uzun illər şəhər sovetinin deputatı olub. 1970-ci ildə doktorluq dissertasiyası müdafiə edib, 1972-ci ildə professor adına layiq görülüb.

Əhməd müəllim uzun illər müəllimlik peşəsində çalışaraq həmişə tələbələrinə elmilik, saflıq, təmizlik, halallıq dərsi keçib və belə insanlar bir az dəqiq desək, yəni, köhnə kişilər qiymətli saat kimidir, yəni ilin-günün ağır vədəsində əyrili-əyintili vaxtında onların qoyduqları bu halallıq, saflıq saatı ilə özünü düzəldirsən, özünü yığışdırırsan. Çünki Əhməd müəllim sözünü harda və necə deməyi bacaran əsl insan idi. Akademik İmam Mustafayev deyərdi: **"Əgər Əhməd hansı işə başlayıbsa, onun axırına çıxacaq, eləcə də sözünü sonadək deyəcək".**

**Tələbələri onu həmişə xoş sözlərlə yad edir. Onlardan biri görkəmli alim Zirəddin Məmmədov onu xatırlayaraq belə deyir:** "Bir dəfə fizika dərsi keçməyə bizə Göyuşov familiyalı bir müəllim gəldi. O, savadsız idi, yazını dəftərdən lövhəyə köçürə bilmirdi. Baxdım, özümdən ixtiyarsız "nə yaman savadlıdır" deyə replika atdım. Müəllim məni dərsdən çıxardı və institutdan qovacağı ilə hədələdi. Mən bu zaman bizim institutun partiya təşkilat katibi professor Əhməd Həsənova müraciət etdim. "Bu cür müəllimləri dərhal institutdan qovmaq lazımdır" - dedi. Və hər şeyi yoluna qoydu. Həmin müəllim mənə heç nə deyə bilmədi, mən yüksək qiymət aldım. Əhməd müəllim çox qayğıkeş və gözəl insan idi. Allah ona rəhmət eləsin".

Tanıyanlar bir qayda olaraq onu sevirdi. Bu insanı sevməmək sadəcə mümkün deyildi, kişilik, insanlıq, ləyaqət Əhməd müəllimə xas olan əsas əlamətlər idi.

Alman filosofu Nitsşe deyib ki, dünyada sonuncu yaxşı adam qalana qədər yaşamaq olar. Ancaq o şərtlə ki, sonuncu yaxşı adamın başqası olacağına ümidli olub arxayınlaşmayasınız. Hər biriniz hesab eləyin ki, o, sizsiniz və başqalarının sizə güvəncini doğrultmağa çalışın. Onda yaxşılıq heç vaxt tükənməz. Bu deviz professor Ə.Həsənovun əsas həyat amalı idi. Olduqca vətənpərvər bir insan olub. 1988-ci ildə ermənilərin Azərbaycana növbəti dəfə torpaq iddiası zamanı Əhməd müəllim daim səngərlərdə döyüşən əsgərlərlə görüşə gedirdi. Tovuz Xeyriyyə Cəmiyyətinin Gəncə filialını yaradaraq ona rəhbərlik edirdi. O, daim əsgərlərə geyim, ərzaq aparılmasına təşkilatçılıq edərdi. Onu həmişə Tovuzun dağ kəndlərində ermənilərlə sərhəddə görmək mümkün idi. Bir dəfə ona nigarançılığımı çatdırdım:

- ***Əhməd müəllim, sərhəddə nə işin var, Allah eləməsin, düşmənin gülləsinə tuş gələrsən.***

- Mənim qanım burdakıların qanından artıq deyil ki, əsgərlər məni görəndə daha ürəkli olur, daha yaxşı döyüşür. Onlarda döyüş ruhunu yüksəltmək çox vacibdir.

Əhməd müəllim həmişə öz işini ləyaqətlə görərdi. Onun sözü həyatda olduğu kimi, elmdə də kəsərli oldu. O, elmi kadrların yetişməsində çox fəal iştirak edirdi. Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun müdafiə şurasının üzvü olmaqla, 20-yə yaxın namizədlik dissertasiyasına opponentlik edib, 40-a qədər monoqrafiyanın, yüzlərlə elmi məqalələrin, kitab və dərsliklərin müəllifidir.

Bakı Dövlət Universitetində tələbə olarkən dövrün görkəmli alimlərindən Abdulla Qarayevin, Şəfahət Mehdiyevin, Qoşqar Əhmədlinin, İmam Mustafayevin, Firudin Köçərlinin, Ənvər Əhmədin hörmətini qazanıb. Yüksək bacarığına və qabiliyyətinə görə bu işıqlı insan hələ tələbəlik illərində irəli çəkilərək universitetdə tələbə sovetinə sədr seçilib. O, Qəzənfər Cəfərli, Tofiq Köçərli, Müseyib Müseyibov, Hamid İmanov, Bəhram Əsgərov, Sayad Qılıcov, Məqsəd Səttarov, Validə Tutayuk, Sidiqə Məmmədova, Rəşid Rəsulov, Fuad Qasımzadə, Tofiq Rəsulov kimi alimlərlə dostluğunu ömrünün sonuna kimi davam etdirib.

Elinə, obasına sədaqəti, mərdliyi, bacarığı ilə xalq arasında özünə dərin hörmət qazanmış uzaqgörən alim Əhməd Həsənov təmənnasız olaraq kömək etdiyi, qayğı göstərdiyi yüzlərlə alim və mütəxəssis onun arzularını davam etdirərək bu gün də müasir Azərbaycanımızın çiçəklənməsində çox fəal iştirak edirlər.

Həyatı boyu əyilməyən, dostluqda sədaqətli, el-oba, qohum qədri bilən, onların qayğısını çəkməyi bacaran insan idi. Ə.Həsənovun elə bu yüksək insani keyfiyyətləri onunla dövrünün görkəmli alimləri, qabaqcıl ziyalıları və mütəxəssisləri arasında dostluq əlaqələrinin yaranmasına səbəb olmuşdu.

**Bu məqalədə vətəndaşlıq borcumu yerinə yetirərək unudulmaz, dəyərli şəxsiyyətlərimizdən Əhməd Həsənovu yad etməklə xatırlatmaq istəyirəm ki, gələcəyimiz üçün keçmişimizə qiymət verməyi bacarmalıyıq. Unutsaq, unudularıq.**

**Ruhun şad olsun, gözəl insan! Sən mərdlik, kişilik, ləyaqət, cəngavərlik simvolu oldun.**

**Bu anda böyük şairimiz Səməd Vurğunun ölməz misralarını yada salmaq daha yerində olardı:**

***Ölüm sevinməsin qoy,***
***ömrünü vermir bada,***
***El qədrini canından daha***
***əziz bilənlər.***
***Şirin bir xatirətək qalacaqlar dünyada***
***Sevərək yaşayanlar, sevilərək ölənlər.***

Əhməd müəllim də qəlbimizdə bax beləcə yaşayacaq.

❑ F.ƏKBƏROĞLU

# Türkiyə-Azərbaycan birliyi ətrafında müzakirələr qızışır

**Türkiyə Silahlı Qüvvələrinin sabiq Baş Qərargah rəisi, ordu generalı İlkər Başbuğun Türkiyə və Azərbaycanın bir dövlət olması ilə bağlı fikirləri ətrafında müzakirələr getdikcə qızışır. Hər iki ölkənin tanınmış simaları bir-birilərinin ardınca birlik barədə fikirlər səsləndirməyə başlayıblar.**

Xatırladaq ki, Türkiyənin ordu generalının birlik barədə bu açıqlamaları diqqət çəkmişdi: "Mənim ən böyük xəyalım Türkiyə və Azərbaycanın tək dövlət olmasıdır. Onsuz da "tək millət, iki dövlət" deyilmi? Bir-birimizlə tərcüməçi olmadan danışırıq. Amma mümkün deyil. İmkan verməzlər. Kaş ki, şərait uyğun olaydı".

Türkiyə "dərin dövlət"inin və generalitetinin strateji planında bu birliyin yaradılması sirr deyil. Amma birliklə bağlı qarşıya çıxan problemləri nəzərə alsaq, Başbuğun dediyi kimi, buna dünya gücləri imkan verməzlər.

**BQP sədri, millət vəkili Fazil Mustafa** Başbuğun fikirlərinə ilk tərəf çıxanlardan olub. Amma bununla belə, o da hazırkı durumda bunun mümkünsüzlüyünə işarə vurub: "Bu fikir bizim də gələcək ideyalarımızda yer alır. Amma indiki şərtlərdə Azərbaycan Rusiya arealının içərisində müəyyən təhlükələr yaşadığına görə, Türkiyənin də təhlükələrlə üzləşdiyini nəzərə alaraq bunu gerçəkləşdirmək real görünmür. Gələcəkdə isə belə bir zərurətin olması ehtimalı böyükdür".



**Fazil Mustafa: "Gələcəkdə belə zərurətin olması ehtimalı böyükdür"**



**Elman Fəttah: "Bir dövlətdə birləşmək məsələsinə heç bir zərurət görmürəm"**

**Deputat deyir ki, Rusiyanın müəyyən qədər bölgədən çəkilməsi vacibdir ki, Azərbaycan daha müstəqil qərar qəbul edə bilsin:** "Bu, birinci növbədə Azərbaycanın təhlükəsizliyi baxımından faydalı ideyadır. Bu formatda qonşu dövlətlərin təzyiqi ilə müəyyən dərəcədə müstəqilliyimiz üçün həmişə bir təhdidlə yaşayacağıq. Amma bizim Türkiyə ilə hansısa konfederativ əsaslarla uzlaşma yolu tapmağımız gələcəkdə həm də mövcudluğumuzun qorunması üçün olmazsa olmaza çevrilə bilər. Ona görə də mən indiki şərtlərdə bunu real saymasam da gələcəyin layihəsi kimi gözdən çıxarılmasının da doğru olmayacağını düşünürəm, bu məsələ həmişə diqqətimizdə qalmalıdır".

**Qeyd edək ki, birliyə tərəfdar çıxanlar çoxluq təşkil etsələr də, bunun əleyhinə olanlar da var. Bu təklifi ilk dəfə irəli sürən tanınmış hüquqşünas Vaqif Hacıbəyli "Yeni Müsavat"a açıqlamasında təşəbbüsünə qarşı çıxanlar sırasında Müsavat Partiyasının da olduğunu qeyd edib. Onun əsas diqqətçəkən fikirləri bunlardır:** "Təəssüflər olsun ki, bu təklifimi Azərbaycanın bəzi siyasi qüvvələri müstəqilliyimizin itirilə biləcəyi kimi dəyərləndirdilər. O vaxt Müsavat Partiyası da bu cür mövqe tutdu. Buna çox təəssüflənirəm. Vurğun Əyyub tərəfindən açıqlanan rəsmi mövqedə Müsavatın Azərbaycanın müstəqilliyinin tərəfdarı olduğu göstərildi. Əlbəttə, bu, düzgün yanaşma deyildi".

**İndiki zaman acısından Müsavat Partiyasının hələ də Azərbaycan-Türkiyə birliyinin olması ilə bağlı əvvəlki fikirlərində qalıb-qalmaması ilə maraqlandıq. Başqan müavini Elman Fəttah bildirdi ki, məsələni suverenliyin təhlükə altına düşməsi kimi qəbul etmək və suverenlikdən imtina mərhələsinə qədər uzatmaq düzgün deyil:** "Müsavat üçün Azərbaycanın suverenliyi ən müqəddəs bir məsələdir. Heç bir məsələ Azərbaycanın suverenliyinin itirilməsi ilə yekunlaşmamalıdır. Türkiyə-Azərbaycan münasibətləri səmimi dostluq ənənələrinə malikdir. Həm hər iki toplumun xüsusiyyətləri, həm də hər iki dövlətin maraqları baxımından bütün həlledici məsələlər üst-üstə düşür. Hər iki dövlətin münasibətləri ən yüksək səviyyədə inkişaf etdirilməlidir. Düşünürəm ki, hər iki dövlət arasındakı viza məsələsinin hələ də həll edilməməsi absurddur. Amma bir dövlətdə birləşmək məsələsinə heç bir zərurət görmürəm. Çünki bir dövlətdə birləşmədən, hər iki dövlət yüksək səviyyədə birlik nümayiş etdirə bilər. Bunun üçün çox ciddi təbii zəmin var. Amma məsələnin bu şəkildə qoyulması ki, bir dövlətdə birləşdirilsin-dövlətin adının Türkiyə və ya Azərbaycan olacağını bilmirəm-bu doğru deyil. Müsavat Partiyası buna isti münasibət sərgiləyə bilməz. Azərbaycanın suverenliyi bütün məsələlərdən öndə durur".

**E.Fəttah Konfederasiya Birliyinin yaradılması təklifinə də münasibət bildirdi:** "Dünya təcrübəsi belə göstərir ki, konfederasiyaların ömrü uzun olmur. Yaradılmış konfederasiyalar qısa zamanda ya federasiyalara çevrilirlər, yəni hansısa dövlətin tərkib hissəsinə çevrilirlər, ya da o konfederasiya dağılmaqla yekunlaşır".

❑ **Cavanşir ABBASLI**

# Avropaya axın edən miqrantların faciəsi bitmir

## Ölkələr anlaşır, maliyyələr ayrılır, amma qaçqınlar dənizdə boğulmaqda davam edir

**Avropaya axın edən qaçqınlar və onların taleyi ilə bağlı durum öz kritikliyini qoruyur. Son olaraq aprelin 18-də qeyri-leqal yolla Avropaya getmək istəyən miqrantların batması ilə nəticələnən irimiqyaslı gəmi qəzası baş verib. Aralıq dənizində göyərtəsində miqrantlar olan gəmi batıb. Hadisə nəticəsində 400 nəfərin öldüyü bildirilir. İtaliyaya üz tutan gəmi Misir sahillərində qəzaya uğrayıb. Məlumata əsasən, ölənlərin əksəriyyəti Somali vətəndaşlarıdır.**



### 400 miqrantdan 29-u xilas edilib

Somalinin Misirdə olan səfiri "BBC"-yə verdiyi müsahibədə 400 miqrantın Aralıq dənizində boğulduğunu bildirib. Əsasən Somali, Efiopiya və Eritreyadan olan bu miqrantlardan yalnız 29-u xilas edilə bilib. Məlumata görə, miqrantlar öz səfərlərinə Misirdən başlayıblar. Bundan əlavə, Liviya sahillərində qayığın batması nəticəsində daha 8 nəfərin öldüyü bildirilir.

Avropa Parlamentinin prezidenti bildirib ki, Ankara Avropa İttifaqından miqrant böhranının həlli üçün Türkiyəyə ediləcək yardımın iki dəfə artırılmasını istəyir.

Avropa İttifaqının nümayəndələri Türkiyə rəsmiləri ilə miqrant böhranını Brüsseldə zirvə görüşündə müzakirə ediblər. Minlərlə qaçqın Yunanıstan-Makedoniya sərhədini keçmək üçün gözləyir. Avropa Parlamentinin prezidenti Martin Şulz deyib ki, Türkiyə qaçqınların Avropaya keçməsinin qarşısını almaq üçün əlavə olaraq 3,3 miliyard dollar istəyib.

Keçən il noyabr ayında Avropa İttifaqı Ankaraya miqrant böhranının həlli məqsədilə 3,3 milyard dollar yardım etməyə razı olmuşdu. Avropa Parlamentinin prezidenti bildirib ki, Ankara Avropa İttifaqından miqrant böhranının həlli üçün Türkiyəyə ediləcək yardımın iki dəfə artırılmasını istəyir.

### Türkiyə 2.7 milyon qaçqına miqrant statusu verib

"Reuters"in məlumatına əsasən, Aİ və Türkiyə arasında miqrant böhranı barədə razılaşmada deyilir ki, Türkiyə Yunanıstana qeyri-qanuni yolla keçən miqrantları müvəqqəti olaraq geri götürməyə razıdır. Bunun əvəzində Aİ Türkiyə vətəndaşları üçün viza rejiminin tətbiq edilməsini aradan qaldıracaq və ölkənin ittifaqa üzvlük məsələsini sürətləndirəcək.

Türkiyə Suriyadan gələn 2,7 milyondan çox qaçqına sığınacaq verib. Avropanın başqa ölkəri və Suriyanın digər qonşuları kimi, Türkiyə də qaçqınların xidmətlərlə təmin edilməsində çətinliklərlə qarşılaşır.

NATO bazar günü Yunanıstan və Türkiyəyə böhranın daha da dərinləşməsinə gətirib çıxarın insan alveri halları və cinayətkar qruplarla mübarizə məqsədilə Egey dənizində gəmilər yerləşdirildiyini elan edib.

### Miqrantlar Yunanıstandan çıxa bilmir

Bu arada Yunanıstanda da durum xoşagələn deyil. Sərhədlərin bağlanması 50 min qaçqının Yunanıstanda ilişib qalmasına səbəb olub. Afinanın Piraeus limanı geri dönə bilməyən qaçqınların əsas dayanacağına çevrilib. Lakin hökumət iqtisadiyyata təkan vermək məqsədilə önümüzdəki turist mövsümünə hazırlaşdığı üçün qaçqınları başqa bir yerə köçürməyə səy göstərir. Amma bu vəziyyət hər kəsin xoşuna gəlmir.

İqtisadi baxımdan zəifləyən Yunanıstanın çox ehtiyacı olduğu turist mövsümü yaxınlaşdığı üçün hökumət qaçqınları köçürməyə qətiyyətlidir: **"Onlar burada işlərin bərpa olunması məqsədilə bu müvəqqəti tranzit stansiyanı təmizləmək və normal vəziyyətinə qaytarmaq istəyirlər".**

### Anlaşma qaçqınların sayını azaldıb

Avropa İttifaqı (Aİ) və Türkiyə arasındakı miqrasiya sazişinin tətbiqi Egey dənizi vasitəsilə Yunanıstana çatmağa çalışan mühacirlərin sayını azaldıb.

Bu barədə "Trend" "Frontex" Aİ-nin xarici sərhədlərin nəzarəti üzrə Avropa agentliyinin məlumatına istinadən bildirir.

Xatırladaq ki, martın 18-də Aİ-nin liderləri və Türkiyənin baş naziri Əhməd Davudoğlu arasında Türkiyədən Yunanıstana gələn qanunsuz miqrantların geri qaytarılmasına dair saziş imzalanıb.

Bunun əvəzində Türkiyə və Aİ arasında vizasız rejim tətbiq olunacaq, 3 milyard avro kompensasiya ödəniləcək. Bundan başqa, Aİ Türkiyə ərazisindən qanuni əsaslarla gələn suriyalı qaçqınları qəbul etmək barədə öhdəlik götürüb.

"Frontex"in məlumatına əsasən, martda Yunanıstana 26 460 mühacir daxil olub və bu rəqəm fevral ayı ilə müqayisədə iki dəfə azdır.

Mühacirlərin ümumi sayından təxminən 23 000 Yunanıstana, Aİ-Türkiyə arasındakı imzalanan sazişdən əvvəl daxil olub.

"Frontex" qeyd edir ki, Yunanıstana mühacir axınının azalması aprel ayında da müşahidə olunur.

❑ **Sevinc TELMANQIZI**

# Nazir "batırıq" deyən supermarket rəhbərləri ilə görüşdü



**Vüqar Bayramov:** "Diferensial vergi sisteminin tətbiq edilməsi imkan verəcək ki, supermarketlər üçün daha aşağı vergilər tətbiq edilsin"

**Vahid Əhmədov:** "Gündəlik tələbat olan ərzaq məhsullarına tətbiq olunan vergi yüngülləşdirilməlidir"

**Aprelin 18-də bəzi supermarketlərin ("Bizim market", "FRESCO", "Səbət", "Makromart", "Araz", "Neptun", "Bolmart") sahibləri ölkədə istehsal edilən sosial əhəmiyyətli ilkin tələbat məhsulları, xüsusilə ət, balıq, süd, un məmulatları, yumurta, düyü, yağ, meyvə-tərəvəz və uşaq qidaları üzrə ƏDV-yə sıfır faiz dərəcəsinin tətbiq edilməsi xahişi ilə İqtisadiyyat Nazirliyinə məktub ünvanlayıblar.**

Sahibkarlar iqtisadiyyat nazirinə ünvanladıqları müraciətlərində bildiriblər ki, 2015-ci ilin fevral ayının 21-də baş verən devalvasiyadan sonra qiymət artımı və işçi ixtisarına getmədiklərinə görə Azərbaycanın əsas supermarket şəbəkələrinin mənfəət marjaları minimuma enib. Lakin qiymətləri qaldırmadan şəbəkələrdə rentabelliyi və işçi sayını qoruyub saxlamaq mümkün deyil. Maddi sıxıntılar mağazaların bağlanmasına və işçilərin ixtisarına səbəb olub. Müraciətdə həmçinin sosial əhəmiyyətli gündəlik tələbat mallarının, xüsusən yerli istehsal olan kənd təsərrüfatı məhsullarının, habelə uşaq qidalarının istehsalı və bütün satış zəncirinə ƏDV tətbiqinin aradan qaldırılmasının məqsədəuyğunluğu qeyd olunur. Sahibkarlar xahiş edir ki, iqtisadiyyat naziri bu problemin həll edilməsi üçün qanunvericilikdə düzəliş təşəbbüsü ilə çıxış etsin. İqtisadiyyat Nazirliyinin mətbuat xidmətinin rəhbəri Abbas Əliyevin verdiyi məlumata görə, aprelin 19-da iqtisadiyyat naziri Şahin Mustafayev onlarla görüş keçirib.

**"Nazir Şahin Mustafayev sahibkarları qəbul edib və onların problemlərini dinləyib. Hazırda sahibkarları narahat edən problemlər araşdırılır"**, - deyə A.Əliyev bildirib.

Bu vəziyyətdən çıxış yolu nədir?

**"Yeni Müsavat"a açıqlamasında məsələyə münasibət bildirən iqtisadçı ekspert Vüqar Bayramov vurğuladı ki, hökumət bu müraciətə çox ciddi yanaşmalıdır:** "Çünki söhbət ölkənin aparıcı supermarketlərinin müraciətindən gedir. Xidmət sektorunda kifayət qədər böyük paya malik olan qurumların müraciəti hökumətdən tələb edir ki, bu məsələ diqqətlə araşdırılsın və supermarketlərin indiki vəziyyətdən çıxışı üçün addımların atılmasına ehtiyac var. İlk növbədə onu qeyd edək ki, birinci və ikinci devalvasiyadan sonra da supermarketlərdə qiymət artımları oldu. Bahalaşmanın olmadığını söyləmək də doğru deyil. Ancaq bu qiymət artımları heç də supermarketlərlə bağlı deyil. Bu, manatın devalvasiyası nəticəsində ölkəyə idxal olunan məhsulların qiymətinin manat ifadəsində artması ilə bağlı idi. Praktik olaraq, supermarketlər qiymət artımlarına məcbur oldular və devalvasiyadan daha az qiymət artımları müşahidə olundu. Bəzi məhsullarda isə daha çox artım oldu. Devalvasiyadan sonra alıcılıq qabiliyyəti aşağı düşdü. Ancaq supermarketlərin xərclərində dəyişikliklər olmadı. Nəticədə bir tərəfdən devalvasiya özünü qiymət artımlarında göstərdi. Digər tərəfdən, xərclər artdı. Bu da iri marketlərin fəaliyyətinə ciddi şəkildə təsir göstərdi. Artıq onların bir qismi müflisləşmə təhlükəsi ilə üz-üzə qalıb. Hökumətin bu istiqamətdə addımlar atmasına ehtiyac var".

**Ekspert təklif etdi ki, diferensial vergi sistemi təklif olunsun və gündəlik tələbat olan məhsullara qoyulan ƏDV azaldılsın:** "Diferensial vergi sisteminin tətbiq edilməsi imkan verəcək ki, supermarketlər üçün daha aşağı vergilər tətbiq edilsin. Bu isə onların xərclərinin azalmasına gətirib çıxaracaq. Supermarketlərin olması olduqca vacibdir. Çünki xidmət sektorunda rəqabətin gücləndirilməsinə ehtiyac var. Əgər xidmət sektorunda rəqabət güclənməzsə, supermarketlərin boğulması nəticəsində rəqabət azalarsa, bu, qiymətlərin artmasına gətirib çıxaracaq. Bazarda qalmış iri marketlərin mövqeyinin güclənməsinə səbəb olacaq. Ona görə də hökumət diferensial vergi sistemi tətbiq etməlidir və supermarketlər üçün daha aşağı vergilər müəyyən etməlidir. Mən təklif edirəm ki, növbəti iki ildə supermarketlər üçün daha aşağı vergilər tətbiq olunsun. Güzəştli vergilərin tətbiqi supermarketlərin bağlanmasının qarşısını alacaq və rəqabət güclənəcək.

Xidmət sektorunda yaranmış problemlərin aradan qaldırılması üçün Azərbaycanda diferensial vergi sisteminin tətbiqinə, hər sektor üzrə fərqli vergi dərəcələrinin müəyyənləşdirilməsinə ehtiyac var".

**Vüqar Bayramovun sözlərinə görə, vergi güzəştlərinin tətbiq edilməsi birbaşa vergi daxilolmalarının azalması anlamına gəlməməlidir:** "Söhbət vergi dərəcələrinin optimallaşdırılmasından gedir. Vergi güzəştlərinin tətbiq edilməsi birbaşa vergi daxilolmalarının azalmasına səbəb olmayacaq. Əgər güzəştlər edilməzsə, nəticə ona gətirib çıxaracaq ki, iri marketlər fəaliyyətini dayandıracaqlar, ümumiyyətlə, vergi ödəməyəcəklər. Bu da vergi daxilolmalarının azalmasına səbəb olacaq. Vergi dərəcələrinin optimallaşdırılması isə marketlərin fəaliyyətinin davam etməsinə və alıcılığın artmasına səbəb olacaq ki, bu da vergi daxilolmalarına müsbət təsir göstərəcək".




**Milli Məclisin İqtisadi siyasət komitəsinin üzvü Vahid Əhmədov da "Yeni Müsavat"a açıqlamasında problemdən çıxış yolu kimi hökuməti diferensial vergi sisteminin tətbiqinə çağırdı:** "Mənim aldığım məlumata görə, hökumət bu məsələyə çox ciddi yanaşır və iqtisadiyyat naziri həmin sahibkarları qəbul edib. Mən və həmkarlarım dəfələrlə Milli Məclisdə təklif etmişik ki, diferensiallaşmış vergi sistemindən istifadə edilsin. Bütün məhsullara 18 faiz ƏDV tətbiq etmək, mənim fikrimcə, çox yüksəkdir. Elə məhsullar var ki, onlara daha yüksək vergi tətbiq etmək olar. Ancaq gündəlik tələbat olan ərzaq məhsullarına tətbiq olunan vergi yüngülləşdirilməlidir. Vergilər Nazirliyinin, İqtisadiyyat Nazirliyinin, Maliyyə Nazirliyinin rəhbər şəxsləri birgə yığışıb bu məsələyə baxmalıdırlar. Çünki əlavə dəyər vergisi büdcəni formalaşdıran əsas vergi növlərindən biridir. Hər il əlavə dəyər vergisindən büdcəyə təxminən 2 milyard manatdan yuxarı vəsait daxil olur. Ancaq diferensiallaşmış vergi sistemi tətbiq olunsa, bu daxilolmalarda azalma baş verməyəcək. Çünki qiymət aşağı düşəcək və əhalinin alıcılıq qabiliyyəti artacaq. Bundan başqa, iri marketlərin bağlanması prosesi dayanacaq və bu da vergi ödəmələrinin artmasına səbəb olacaq.

Bu yaxınlarda Milli Məclisdə Hesablama Palatasının hesabatı veriləndə də, bu məsələyə toxunuldu ki, diferensiallaşmış vergi sisteminin tətbiq olunması üçün hökumətə müəyyən təkliflər verildi. Yəni məsələ gündəmdədir, lakin necə həll olunacağını deyə bilmərəm".

❑ **Nərgiz LİFTİYEVA**



## Ermənistanda yoxsulluq səviyyəsi 76%-i keçdi

**Ermənistanda əhalinin 76%-i bir gündə 5 dollardan az pul xərcləyir. Bu barədə Dünya Bankının bir neçə gün əvvəl dərc edilmiş hesabatında bildirilib. Ermənistanın "168 jam" qəzetinin yazdığına görə, Dünya Bankında gündə 5 dollardan az pul xərcləyən insanlar yoxsul hesab edilirlər. Qəzetdə qeyd olunur ki, Dünya Bankı yoxsulluq meyarını iki göstərici ilə müəyyənləşdirir: birincisi, günə 2,5 dollar, ikincisi, günə 5 dollar xərcləmək.**

2,5 dollar göstəricisinə görə 2014-cü ildə Ermənistanda yoxsulluğun səviyyəsi 26 faiz olub. 5 dollar göstəricisinə görə isə əhalinin 76 faizi yoxsuldur və bu, əhalinin 3/4 hissəsini təşkil edir.

Xatırladaq ki, Milli Statistika Xidmətinin məlumatına əsasən, Ermənistanda yoxsulluğun səviyyəsi 2014-cü ilin sonunda ölkə əhalisinin 30 faizini əhatə edib (2013-cü ilin eyni dövrü ilə müqayisədə 2% azalıb). Milli Statistika Xidmətinin metodologiyasına görə yetkinlik yaşına çatan və gəliri 40264 dramdan aşağı olanlar yoxsul hesab edilir.



## Azərbaycandan Gürcüstana 12 kq külçə qızıl və 132 min dollar aparanlar tutuldu

**Gürcüstana qanunsuz yollarla 12 kiloqram külçə qızıl və 132 min dollar nəğd pul keçirən Azərbaycan vətəndaşları həbs olunub. Virtualaz.org xəbər verir ki, bu barədə Gürcüstan Maliyyə Nazirliyi yanında istintaq xidməti məluma yayıb. Məlumata görə, Azərbaycan vətəndaşları "Qırmızı körpü" sərhəd-keçid məntəqəsində saxlanılıblar. Onların apardığı qızılın qiyməti 490 min dollar qiymətindədir. "Bu, misli görünməmiş haldır"-Gürcüstan tərəfi bildirir.**

Külçə qızıllar və dollarlar Azərbaycan vətəndaşının idarə etdiyi BMW markalı avtomobilin mühərrik hissəsindəki gizli saxlanc yerində gizlədilib. Faktla bağlı cinayət işi qaldırılıb, saxlanılanları 8 ildən 11 ilə qədər həbs cəzası gözləyir. Onlara məxsus qızıl və pul isə müsadirə ediləcək.

# İslahatlara partiya sədrlərindən fərqli münasibət

**Sərdar Cəlaloğlu:** "Birinci siyasət, ikinci hüquq sistemi dəyişilməlidir, üçüncü iqtisadiyyatda islahatlara gedilməlidir"
**Fəzail Ağamalı:** "Fakt budur ki, son 4 ayda Azərbaycan iqtisadiyyatının neftdən asılılığının aradan qaldırılması istiqamətində ciddi addımlar atılıb"







**İslahatların bütün sahələri əhatə edəcəyi il kimi elan olunan 2016-cı ilin 4 ayı başa çatmaq üzrədir. Bu dörd ayda ölkədə əsasən iqtisadi sahələrdə islahatlar, struktur islahatları istiqamətində addımların atıldığı daha çox müşahidə olundu. Anonsu verilən islahatların 4 ay ərzində necə həyata keçirilən işlərlə bağlı siyasi partiya sədrlərinin mövqeyi isə fərqlənir.**

**ADP sədri Sərdar Cəlaloğlu** hesab edir ki, Azərbaycanda sözün həqiqi mənasında ciddi bir islahatlar keçirilmir. İslahat istiqamətində atıldığı deyilən addımların isə elə də ciddi nəticələri, effekti müşahidə edilmir. Bunun da əsas səbəbi ondan ibarətdir ki, ölkədəki islahatlar siyasi sferadan başlamalıdır: "Çünki siyasət dəyişilməyəcəyi təqdirdə digər sferalarda da hər hansı bir ciddi dəyişiklik mümkün deyil. Birinci siyasət, ikinci hüquq sistemi dəyişilməlidir, üçüncü iqtisadiyyatda islahatlara gedilməlidir. Yalnız bu şəkildə aparılan islahatların real ciddi effekti olar. Əgər cəmiyyətdə siyasi sahədə demokratik islahatlar, hüququn aliliyi sahəsində islahatlar olmasa, iqtisadi sahədə islahata nə qədər cəhd etsən də, istənilən nəticəni əldə edə bilməyəcəksən. Son dörd ayda siyasətdə islahatlar həyata keçirilmədiyi üçün iqtisadi sahədə atılan addımlar ciddi islahatlara gətirib çıxarmadı. Siyasi islahat deyərkən biz onu nəzərdə tuturuq ki, birinci növbədə demokratik parlamentin mövcudluğu təmin edilməlidir. Açar budur. Sonra iqtidar-müxalifət münasibətlərinin qanunçuluğa, demokratik prinsiplərə əsaslanması, siyasi partiyaların, insanların cəmiyyət həyatında iştirakına mane olmamaq, dövlət idarəçiliyində aşkarlığın təmin edilməsi kimi məsələlər nəzərdə tutulur. Hüquqi islahatlar deyərkən isə konstitusion reformalar, eyni zamanda həmin konstitusiyaya uyğun olaraq Azərbaycandakı qanunların Avropa standartlarına uyğunlaşdırılması, məhkəmələrin müstəqilliyinə nail olunması nəzərdə tutulur. Son dörd ayda sadaladığım bu sahələrdə islahatlara gedildiyini yəqin ki, təsdiq edəcək ciddi bir faktı heç kim ortaya qoya bilməz".

**ADP sədri vurğuladı ki, siyasi və hüquqi islahatlar aparılmadığı üçün iqtidar iqtisadi sahədə həyata keçirmək istədiyi dəyişikliklərdə çox böyük maneələrlə rastlaşır. Ona görə də kiçicik bir iqtisadi islahat üçün ölkə prezidenti neçə-neçə fərman verməli olur:** "Belə bir durumun obyektiv və subyektiv səbəbi var. Subyektiv səbəbi ölkədəki mövcud sistemdən bəhrələnən merkantil qüvvələrin maraqları, Rusiyanın çox ciddi təsirinin olmasıdır. Azərbaycanın və digər keçmiş SSRİ respublikalarının demokratikləşməsinin qarşısında ən böyük obyektiv əngəllərdən biri isə Rusiyadır, Rusiyanın bu ölkələrdəki "beşinci kolon" deyilən tərəfdarlarıdır. Demokratik islahatlar yolunu tutmaq istəyən hər respublika Rusiya tərəfindən cəzalandırılır. Obyektiv səbəblər isə resurslardır. Siyasi islahatlar həyata keçirilirsə, ölkədə güclü müxalifət və güclü iqtidar partiyaları olmalıdır. Azərbaycanda isə nə güclü müxalifət, nə də güclü iqtidar partiyası var".

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı isə hesab edir ki, son dörd ay Azərbaycan iqtisadiyyatının neftdən asılılığının aradan qaldırılması yönündə həyata keçirilən islahatların uğurlu başlanğıcı kimi xarakterizə edilə bilər. Vəd edilən islahatlara start verildi və bu proses sistemli şəkildə davam edir:** "Dünya bazarında neftin qiymətinin aşağı düşməsi ölkənin qarşısında iqtisadiyyatın neftdən asılılığını aradan qaldırmaq zərurətini ortaya qoymuş oldu. Ölkə prezidenti sistemli islahatlara başladı. Bu müddətdə idarəetmə sahələrində struktur islahatları, iqtisadi sahədə çox ciddi islahatlara başlandı. Mən tam detallara varmıram, fakt budur ki, son 4 ayda Azərbaycan iqtisadiyyatının neftdən asılılığının aradan qaldırılması istiqamətində ciddi addımlar atılıb. Prezidenti İlham Əliyevin çoxlu sayda fərman və sərəncamları olub. Biznes mühitini stimullaşdıran addımlar atılıb. Əhalinin sosial vəziyyətinin yaxşılaşması üçün addımlar atılıb, maaşlar, dövlət büdcəsindən maliyyələşən bütün strukturlarda çalışanların əmək haqqı artırıldı. Pensiya və təqaüdlər artırıldı. Bir sözlə, islahat prosesi uğurlu başlanğıcla müşahidə olundu. Proses davam edir. İslahatlar sistemli xarakter daşıyır. Son dörd ayda verilən fərmanlar, sərəncamlar, qəbul edilən qanunlar, struktur islahatları gələcək üçün çox böyük imkanların açılması deməkdir. Onların nəticələrini Azərbaycan xalqı görəcək".

❑ **Etibar SEYİDAĞA**

# Neft bazarında qeyri-stabillik - maraqlı gedişlər...

## Ekspertlər yaxın müddətdə qiymətlərlə bağlı gözləntilərini açıqlayırlar; fərqli fikirlər var...

**Nəticəsiz başa çatan Doha görüşündən sonra neftin qiymətləri sabitliyini itirib. Artıq Nyu-Yorkun NYMEX əmtəə birjasında keçirilən elektron ticarət əməliyyatlarının gedişində WTI neftinin qiyməti 1 barelə görə 0,10 dollar azalaraq 39,68 dollar təşkil edib. APA-nın məlumatına görə, ICE London qitələrarası birjasında Brent markalı neftin 1 barelinin dəyəri 0,17 dollar azalaraq 42,74 dollar olub. Aprelin 17-də baş tutan görüşdən sonra neft kəskin ucuzlaşsa da, az sonra bazar "özünə gəlib" və yenidən əvvəlki vəziyyətə qayıdıb.**




Qeyd edək ki, görüşdə razılığın əldə olunmamasına görə Rusiya ərəb ölkələrini günahlandırıb.

**Ekspert İlham Şaban** musavat.com-a bildirib ki, Doha görüşündən sonra qiymətlər bir gün ərzində çox maraqlı gedişlər edib: "Günün birinci yarısında neftin qiymətində ciddi aşağı enmələr özünü büruzə verdi. Günün əvvəlində 6 faizlik enmə vardı. Günün sonunda bu, 0,5 faizə qədər azaldı. Birjalar bağlanarkən gün ərzində neftin qiymətinin 0,5 faiz enməsi məlum oldu. Bazar özünü artıq o çaşqınlıqdan, o gözləntilərdən sanki sığortalamışdı. Bu gün artıq neftin qiymətlərində dünənki ilə müqayisədə 1,25 faiz artım var. Artıq neft kifayət qədər yüksək dinamika göstərir, artım var. Neftin bareli 44 dollara yaxınlaşmaqdadır. Bu isə iki faktordan yararlanır. Birincisi, Küveytdə tətil baş verib, Küveytin ixracı aşağı düşüb. 2015-ci ildən Çində sənayenin enerjiyə olan tələbatının azalması fonunda olan informasiyalar birdən, qəfildən bunun artım dinamikası ilə əvəz olunur. Bu, bazara müsbət dinamika verir. Ona görə də belə hesab etmək olar ki, bu Doha görüşündə OPEK-ə daxil olmayan ölkələrin və OPEK ölkələrinin hər hansı bir razılığa gəlməməsi heç də o demək deyil ki, bazarda hər şey bədbinliklə və yaxud ruh düşkünlüyü ilə müşahidə olunacaq. Neft bazarı çox maraqlı və gözlənilməz bir bazardır. Neftin qiymətləri çoxlu faktorlardan qidalanır, çox həssasdır. Hava şəraitindən tutmuş müxtəlif iqtisadi, makroiqtisadi, o cümlədən siyasi, müharibə, yəni təlatümlü, bu kimi faktorlara bazar reaksiya verir. Ancaq bu, o demək deyil ki, hər hansı bir stabillik əldə olunur. Stabillik üçün fundamental əsaslar lazımdır. Fundamental əsaslar isə tələb və təklifdir".

**Ekspert Fikrət Yusifov isə qeyd edib ki, neftin qiymətlərinin sabitləşdirilməsi yolunda Rusiyanın son bir ildə qaldırdığı təşəbbüslər bir qayda olaraq nəticəsiz qalır:** "Nə üçün OPEK-ə daxil olmayan ölkələr belə bu məsələ ətrafında fikir birliyinə gələ bilmirlər? Əvvəlcədən nəzərdə tutulmuş bu görüşlər bəzən hansısa səbəbdən baş tutmur, bəzən də danışıqlar hər hansı bir razılıq əldə olunmadan yekunlaşır. Məsələyə bir qədər dərindən yanaşılsa, bütün bu proseslərin nə qədər siyasi xarakter daşıdığı tam aydınlığı ilə ortaya çıxar. Baxın, hər dəfə bu danışıqlar OPEK-in əsas söz sahibi, ABŞ-ın Yaxın Şərqdə strateji müttəfiqi, Səudiyyə Ərəbistanı tərəfindən bu və ya digər bəhanələrlə pozulur. Aprelin 17-də də eyni hadisə baş verdi. Səudiyyə Ərəbistanı heç nədən, görüşdə neft hasil edən digər OPEK ölkələrinin də iştirakının vacibliyini bəhanə gətirərək danışıqları pozdu. Halbuki hər kəsə, o cümlədən Səudiyyə Ərəbistanına da əvvəlcədən bu görüşdə hansı ölkələrin iştirak edəcəyi bəlli idi. İran isə neft hasilatının həcmini sanksiyalardan əvvəlki səviyyəyə - yəni gündəlik 4 milyon barelə çatdırdıqdan sonra onu artırmayacağı barədə öhdəlik götürdüyündən bu görüşdə iştirak etməyəcəyini əvvəlcədən bildirmişdi. Danışıqlar pozulacaqdısa, onda Dohaya yığışmağın nə mənası var idi?"

**Ekspertin sözlərinə görə, neftin qiymətlərinin siyasi motivlərinin yekunlaşmağa doğru getməsi barədə səslənən fikirlər hələ ki real deyil:** "Real olan isə odur ki, qiymətlər ətrafındakı siyasi rıçaqlar hələ də işləyir və bunun nə vaxt bitəcəyini böyük gücdən başqa heç kim bilmir. Bu səbəbdən də bundan sonrakı dönəmdə neftin qiymətlərinin necə dəyişəcəyini proqnozlaşdırmaq bir o qədər də asan olmayacaq. OPEK-in üzvü olan ölkələrin və digər neft ölkələrinin iştirakı ilə Dohada keçirilən görüş də bu həqiqəti bir daha təsdiq etdi. Heç şübhə yoxdur ki, yaxın aylarda keçirilməsi planlaşdırılan növbəti görüş də eyni "uğurla" yekunlaşacaq. Bu məsələdə əsas söz sahibi ABŞ-dır və o öz neft sənayesinin ziyanla fəaliyyət göstərməsinə baxmayaraq, hələlik qiymətlərin qalxıb stabilləşməsinin tərəfdarı deyil. Bu səbəbdən də prosesin nə qədər davam edəcəyi bəlli deyil".

**F.Yusifov qeyd edib ki, bir neft ölkəsi olaraq biz dünya bazarlarında neftin qiymətlərinin artmasının tərəfdarıyıq:** "Son aylar ərzində ölkə iqtisadiyyatının qeyri-neft sektorunun dinamik inkişafı istiqamətində atılan ciddi addımların yaxın bir-iki ildə müsbət nəticələr verəcəyi heç kəsdə şübhə doğurmur. Lakin bu müddət ərzində neftdən daxil olan möhkəm valyutanın həcminin çox olması bizə bu prosesləri daha sürətlə aparmaq imkanları vermiş olardı".

**İqtisadçı Qubad İbadoğlu isə deyib ki, Doha toplantısı nefti bahalaşdırmaq əvəzinə bir az da ucuzlaşdırıb:** "Dünya bazarında neft qiymətləri 3,5 faiz ucuzlaşdı, bəzi neft ixrac edən ölkələrin, o sıradan Rusiyanın rublu daha da dəyərsizləşdi, hətta Yaponiya və Çində belə qiymətli kağızlar zəiflədi. İranın qatılmadığı bu toplantıdan sonrakı vəziyyət neft ixrac edən ölkələr üçün daha acınacaqlı görünür. Belə ki, 2017-ci ilin martınadək gündəlik ixracatını 4 milyon barelə çatdırmaq istəyən İran bu gedişlə həmin hədəfə daha tez yaxınlaşa bilər. Bu ölkədə yalnız son 1 ayda xam neftin ixracatında 600 min barel artım qeydə alınıb. Hazırda gündə 10,4 milyon barel neft ixrac edən Səudiyyə Ərəbistanı isə 9 aydan sonra gündəlik hasilatını 12,5 milyon barelə çatdıra bilər. Artan təklifin və paralel olaraq da azalan tələbin qiymətlərə ucuzlaşdırıcı təsir edəcəyinə artıq şübhələr qalmayıb. Bir çox maliyyə analitiklərinin proqnozlarına görə qısa müddətdə neftin 1 bareli 35 dollaradək ucuzlaşacaq. Hətta bu enişin 30 dollara qədər davam edəcəyini proqnozlaşdıran nüfuzlu ekspertlər də var".

**Ekspertin sözlərinə görə, bu toplantı bir daha göstərdi ki, Azərbaycan hakimiyyəti neftə bağlı nəinki siyasətinə yenidən baxmalı, hətta bu sahədəki ümidlərinə belə son qoymalı və ləngimədən iqtisadi islahatlara başlamalıdır:** "Birinci rübün nəticələrinə görə, son 20 ildə ilk dəfə olaraq iqtisadiyyatın 3,5 faiz kiçilməsi, son 15 ildə ilk dəfə olaraq xarici ticarət balansında 291,5 milyon dollarlıq mənfi saldonun yaranması artıq islahatların yubanmasının ciddi fəsadlarını ifadə edir".

❑ **Röya RƏFİYEVA**

# Sosial şəbəkələrdəki mənzil elanları MTK-ların növbəti fırıldağı ola bilərmi?

## Tikinti şirkətlərinin elanları artıb, amma...

**Elan saytları, sosial şəbəkələr tikinti şirkətlərinin elanları ilə dolub-daşır. "Kristal Abşeron", "Qurtuluş -93", "Melisa", "AAF Park" şirkətlərinin facebook səhifələrində ilkin ödənişsiz, tək şəxsiyyət vəsiqəsi ilə təklif etdikləri aşağı faizli təmirli mənzillər ilk baxışdan cəlbedici olsa da, insanlarda həm də sual doğurur. Bu sərfəli şərtlər həm də onları tələyə salmaq üçün bir vasitə ola bilər. Çünki Bakıda yüzlərlə insanın MTK-lar tərəfindən aldadılması, bir mənzilin iki və daha artıq şəxsə satılması, səs-küylü məhkəmə işləri heç kimə sirr deyil.**



Musavat.com bu mövzunu ekspertlərlə müzakirə edib. Mütəxəssislər adıçəkilən şirkətlərdə vətəndaşların aldadılması hallarının olmadığını bildirsələr də, qiymətlərin həddindən artıq şişirdilmiş olduğunu açıqladılar.

**Mənzil-tikinti məsələləri üzrə ekspert Nüsrət İbrahimov** bildirdi ki, tanınmış tikinti şirkətlərinin adı fırıldaqçılıqda hallanmayıb: "Burada aldadılma hallarından söhbət gedə bilməz. Çünki həmin şirkətlər banklarla işləyir. Mənzil almaq istəyən şəxslərə bəlli bir qrafik verilir və o cədvəl üzrə ödənişlər aparılır. Fırıldaqçı şirkətlər, əvvəlcədən pulun hamısını alıb, sonra mənzili tikmirlər. Aylıq olaraq, həmin şirkətin hesabına pul köçürürsən və mənzil alırsan. Burada aldadılma mümkün deyil. Vətəndaş, sadəcə, müqavilənin şərtlərini diqqətlə oxumalıdır ki, o şərtlər istehlakçının mənafeyini qorusun. Fırıldaqçılıq hallarına gəlincə, artıq bunu edən şirkətlər cəmiyyətə bəllidir. Bir də bu işlə məşğul olan tək-tək adamlar saxtakarlıq edə bilərlər. Lakin adıçəkilən iri şirkətlər vətəndaşı aldadıb, öz nüfuzuna xələl gətirməz".

**Əmlak məsələləri üzrə ekspert Ramil Osmanlının fikrincə isə tikinti şirkətlərinin təklif etdikləri mənzillərin qiymətləri maya dəyərindən bir neçə dəfə artıqdır:** "Bu şirkətlərin təqdim etdiyi mənzillərin qiymətləri həddindən artıq yüksəkdir. Binaların əksəriyyəti Xırdalan ərazisindədir. Orada mənzilin hər kvadratına düşən tikinti xərcini hesablasaq, təxminən 500 manat edir. Üzərinə 25 faiz də şirkətin mənfəətini gəlsək, orada real dəyər təxminən 600-650 manat arasında olmalıdır. Ona görə də hesab edirəm ki, təklif olunan qiymətlər, sadəcə, mövcud vəziyyətdən istifadə etməkdir. Bazarda tələb çox, kredit imkanları isə məhdud olduğuna görə şirkətlər bu vəziyyətdən istifadə edirlər. Təklif az, tələb çox olduğu üçün istədikləri qiyməti qoyurlar. Əhali də həmin qiymətə ev götürür, sonra ödəniş etməkdə çətinlik çəkir".

**Vətəndaşların aldadılma ehtimalına gəlincə, R.Osmanlı bildirdi ki, adıçəkilən şirkətlərlə bağlı belə faktlara rast gəlməyib:** "Bu şirkətlər tərəfindən aldadılma halları ilə bağlı hər hansı fakt olmadığına görə bu haqda danışmağı düzgün hesab etmirəm. Lakin bu hallar başqa şirkətlərdə olub. Düşünürəm ki, istehlakçılar MTK-lardan, mənzil-tikinti şirkətlərindən əmlak alarkən bağladıqları müqavilələrdə diqqətli olmalıdırlar".

Tikinti şirkətlərinin təklif etdikləri mənzillərlə bağlı məlumat almaq üçün onlardan bir neçəsi ilə əlaqə saxladıq. "Kristal Abşeron"dan bildirildi ki, onlarda mənzillərin kvadratı 1435 manatdan hesablanır və ilkin ödənişsiz, 4.54 faizlə 20 illik kreditlə verilir. Yaşayış binası Biləcəri qəsəbəsindədir və hər cür kommunal şəraitlə, qaz, mərkəzi istilik sistemi ilə təchiz olunub. Təmirli mənzillər "kupça" ilə 2 il müddətinə verilir. İlk baxışdan şərtlər sadə görünsə də, əlinizə kalkulyatoru aldığınız zaman mənzərə dəyişir. Belə ki, 99 kvadratmetrlik bir mənzil üçün aylıq 1189 manat ödəmək lazım gəlir, həm də 20 il... 68 kvadratmetrlik mənzilin qiyməti isə aylıq 818 manat edir.

"Melisa" tikinti şirkətində isə mənzillərin kvadratmetrinin qiyməti mərtəbəsindən asılı olaraq dəyişir. Təmirli mənzillərin hər kvadratmetrinin qiyməti 1500-1790 manata başa gəlir. Şəffaflığın təmin olunması üçün Azərbaycan Beynəlxalq Bankında hər mənzil üçün müvafiq hesab açılır və ödənişlər bank vasitəsilə həyata keçirilir. Burada mənzillərin əldə olunması üçün illik 8 faizlik kredit verilir. İlkin ödəniş isə mənzilin qiymətinin 10 faizi həcmində müəyyən edilir. Binalar "20 Yanvar" metro stansiyasının yaxınlığında yerləşir.

Bu mənzilləri də hesablasaq, aylıq ödəniş orta səviyyəli Azərbaycan ailəsinin büdcəsini aşır. Qiymətlər baha olsa da, ekspertlərin qiymətləndirmələrinə görə, bu şirkətlərdə aldadılma ehtimalı yoxdur.

❑ **Nərgiz LİFTİYEVA**


## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbəbəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda**, nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağdakı xəstəlikləri**, keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları (**kişi tibbi problemlər**)
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** (*vəzidə düyünlərin əmələ gəlməsi*)
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



**Elan**

**Amerika və Kanadada təhsil və səyahət üçün bizə müraciət edə bilərsiz.**
**e-mail: travelaz2016@gmai.com**
**whatsapp: +1 845 300 7030**
**Tel: +99451 635 2408**



**Montində, Nərimanov Məhkəməsinin həyətində 2 maşınlıq daş qaraj satılır.**
**Obyekt kimi də istifadə etmək olar. Pultla idarə olunan jalüz qapıları var. Tavanı lambrin, döşəməsi tametdir. Ayrılıqda da istifadəyə yarayır. Sahibindən satılır, qiyməti bazar qiymətindən ucuz. Sənədi var.**
**Əlaqə nömrəsi (050) 264 49 99**


## "Nar" Telekommunikasiya, İnformasiya və Bank Texnologiyaları - 2016 (TIBO) beynəlxalq forumunda iştirak edir

### Şirkət nümayəndələri beynəlxalq ictimaiyyəti mobil operatorun ən son nailiyyətləri ilə tanış edirlər

nar
Gəlin birlikdə böyüyək

**19-22 aprel 2016-cı il tarixləri arasında Belarusun paytaxtı Minsk şəhərində telekommunikasiya, informasiya və bank texnologiyaları üzrə ixtisaslaşmış 23-cü beynəlxalq TIBO-2016 forumu keçirilir. Beynəlxalq forumda iştirak edən "Nar" nümayəndələri tədbir iştirakçılarını mobil operatorun ən son nailiyyətləri olan məhsul və xidmətlərlə tanış edirlər.**

**Operatorun sosial şəbəkələr üzərindən tam müştəri xidmətlərini təqdim edən platforması tədbirdə böyük marağa səbəb oldu. Platformanın köməyi ilə müştərilər sosial şəbəkə vasitəsilə operativ xidmətlə təmin edilirlər. Qeyd edək ki, "Nar" Azərbaycanda öz müştəri xidmətlərini bilavasitə sosial media üzərindən təqdim edən ilk və yeganə operatordur.**

**"Nar" tərəfindən təqdim edilən daha bir innovativ məhsul "eNəzarət" xidməti oldu. Bu xidmət sayəsində "Nar" öz abunəçilərinə balanslarını asanlıqla yoxlamaq və idarə etmək imkanı verir. "eNəzarət" xidməti hər hansı bir internet səhifəsinə daxil olduqda, istifadə edilən cihazın ekranında ortaya çıxaraq, abunəçiyə balansındakı məbləğə və internet trafikinə nəzər yetirmək, balansı artırmaq, eləcə də internet paketini aktivləşdirmək fürsəti verir.**

**Sərgidə "Nar" tərəfindən təqdim edilən bir digər yenilik isə "Nar Walk" tətbiqidir. "Nar Walk" vasitəsilə insanlar gəzdikləri məsafəyə görə xallar toplaya bilir, bu xallar əsasında hədiyyələr qazanırlar. Azərbaycanda bir ilk olan bu layihənin əsas məqsədi əyləncəli üsulla insanları sağlam həyata səsləməkdir.**

**1994-cü ildən keçirilən TIBO forumu telekommunikasiya, informasiya texnologiyaları sahəsi üzrə təşkil edilən ən böyük beynəlxalq sərgilərdən biridir. TIBO sərgisində dünyanın müxtəlif ölkələrini təmsil edən çoxsaylı şirkətlər iştirak edirlər. Azərbaycan pavilyonunda Rabitə və yüksək texnologiyalar nazirliyinin təşəbbüsü ilə ölkənin aparıcı telekommunikasiya şirkətləri iştirak edirlər.**



## Neftçalada qardaş qardaşını güllələyərək öldürdü

**Neftçalada qətl hadisəsi baş verib. APA-nın Mil-Muğan bürosunun məlumatına görə, gecə radələrində Neftçala rayonu Mirqurbanlı kənd sakini, 1990-cı il təvəllüdlü Əliyev Dadaş Cəfər oğlu qardaşı 1994-cü il Əliyev Fərid Cəfər oğlunu odlu silahla qətlə yetirib.**

Lent.az-ın məlumatına görə, qardaşını güllələyərək öldürən Mirqurbanlı kənd sakini, 1990-cı il təvəllüdlü Əliyev Dadaş Cəfər oğlu artıq saxlanılaraq istintaqa təhvil verilib. Bəlli olub ki, yaşadıqları evdə D.Əliyevlə 22 yaşlı qardaşı Fərid arasında mübahisə yaranıb. Mübahisə daha sonra davaya keçib və valideynləri onları ayırıb. Daha sonra 26 yaşlı Dadaş küçəyə çıxan qardaşının arxasınca gedərək tüfənglə onu güllələyib. F.Əliyevin həyatını xilas etmək mümkün olmayıb.

Faktla bağlı Neftçala Rayon Prokurorluğunda cinayət işi başlanıb, cinayətdə istifadə edilən odlu silah götürülüb.


**Elan**

**Nərimanov rayonu, Salamzadə küçəsi ev 67 a ünvanında yaşayan Piriyeva Mehriban Kamo qızının adına olan evin kupçası itdiyi üçün etibarsız sayılır.**

YENİ MÜSAVAT
N 84 (6405) 20 aprel 2016

# Bakının mərkəzində Leninin heykəli tapıldı - təfsilat

## SSRİ-nin qurucusunun heykəlini tarixi binada kim qoruyur?

**Bakının mərkəzində, Sahil bağının yaxınlığında yerləşən binaların birində sovet hökumətinin qurucusu Vladimir İliç Leninin heykəli saxlanılır. Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu, ictimai-siyasi xadim Məhəmməd Əmin Rəsulzadənin heykəlinə paytaxtda demək olar ki, rast gəlməsək də, cümhuriyyətimizə son qoyan sovet hökumətinin qurucusunun heykəli bu gün Bakının tam mərkəzində, özü də qədim tarixə malik olan binanın girişində saxlanılır.**





Öncə qeyd edək ki, sovet dövründə Azərbaycanda Leninin ümumilikdə 50-yə yaxın heykəli və büstü mövcud olub. Onlardan ən məşhuru 1955-ci ildə Azadlıq meydanının önündə, Hökumət Evinin fasadında ucaldılan heykəl idi. 1991-ci ildə heykəl Azərbaycan rəhbərliyi tərəfindən demontaj olundu.

Müstəqillik illərində isə Azərbaycanda qalan yeganə abidə Qəbələ rayonunun Qəmərvan kəndində yerləşən Leninin heykəli hesab olunur. Həmin heykəlin hündürlüyü 3 metrdən yuxarıdır. Heykəli daha çox Azərbaycan Komunist Partiyasının fəalları ziyarət edirlər.

Bizim bəhs etdiyimiz heykəldən isə bəlkə də çoxlarının xəbəri yoxdur. Bülbül prospekti 14 ünvanında yerləşən binada olan heykəlin hündürlüyü təxminən 1.70 sm-dir. Heykəlin yanında iki seyf də var. Kənardan baxdıqda Lenin sanki həmin seyflərin keşiyini çəkirmiş kimi görsənir. Heykəlin üzərində ucaldıldığı beton qat da saxlanıldığı üçün onun haradansa sökülərək oraya gətirildiyi istisna edilmir.

Ancaq heykəlin bura nə zaman və kim tərəfindən gətirildiyini orada yaşayan sakinlərin özləri də bilmədilər. 1996-cı ildən bəri məhəllədə yaşayan sakinin sözlərinə görə, heykəl əvvəl binanın ikinci mərtəbəsində olub. Sonradan onu girişə endiriblər. Lakin bu binaya necə gəlməsini o da bilmədi.

Onu da qeyd edək ki, Leninin heykəli olan binanın yanındakı digər tikilidə Azərbaycanın görkəmli xadimləri yaşayıblar. Onlardan dövlət xadimi Qurban Əli oğlu Xəlilov, ictimai xadim, akademik Əliəşrəf Əlizadə, ictimai xadim Ağamirzə Əhmədov, elmlər doktoru Baba Babazadənin adını qeyd edə bilərik. Buradan aydın olur ki, həmin tikililər uzun zaman öncə inşa edilib.

Bir məqamı da qeyd edək ki, dünyada Leninin heykəlinin müxtəlif yerlərdə, hətta meşədə basdırılaraq gizlədilməsi faktına rast gəlinib.

Misal üçün, Vladimir İliç Leninin nəhəng heykəli ötən il, 25 ildən sonra Berlində basdırıldığı meşədən tapılıb. Vaxtilə Lenin meydanında 19 metr hündürlüyündə olan heykəl 1991-ci ildə Almaniyanın birləşməsindən sonra təxminən 130 parçaya ayrılaraq meşədə basdırılıbmış. Spandau Qala Muzeyi heykəlin baş hissəsini şəhərin tarixini izah edən sərgidə nümayiş etdirmək üçün yenidən ortaya çıxarıb. Heykəlin baş hissəsi 1,70 metr hündürlüyündə, təxminən 3,5 ton ağırlığında olub. Rus heykəltəraş Nikolay Tomskynin imzasını daşıyan heykəl 1970-ci ildə Şərqi Berlində dövrün Lenin Meydanında (indiki Birləşmiş Millətlər Meydanı) inşa edilmişdi.

**Mövzu ilə bağlı musavat.com-a danışan tarixçi Dilavər Əzimli bildirib ki, Azərbaycanın bir çox rayonlarında bu cür heykəllərə rast gəlinir:** “Hesab edirəm ki, həmin heykəl, sadəcə olaraq, orada unudulub. Doğulduğum Cəlilabad rayonunda bir kənddə xəstəxananın həyətində də Leninin heykəli qalıb. Ancaq bu o demək deyil ki, o, orada kimlərinsə məhəbbətindən qalıb. Hesab edirəm ki, heykəlləri uçurtmaq yerinə, bir çox Avropa ölkələrində olduğu kimi, xüsusi park düzəldib, onları oraya yığmaq lazımdır. Hər halda, biz bir tarix yaşamışıq və bu adamlar həmin tarixin öndə gedən şəxsiyyətləri olublar. Bunu qəbul edib-etməməyimizdən asılı olaraq bu, belədir. Həmin heykəli kimsə hansısa məqsəd üçün ora qoya bilər. Ancaq bunu mən elə də çox güman etmirəm. Çünki onun hər hansı bir təsiri ola bilməz. Əgər kimsə onu oraya hansısa məqsəd üçün qoyubsa, səhv edib”.

**Tarixçi professor, deputat Musa Qasımlı isə mövzu ilə bağlı musavat.com-a aşağıdakıları bildirib:** “Sovet dövrü Azərbaycan tarixinin bir hissəsidir. Məncə, xalqımıza yad olan bolşevik və ya kommunistlərin heykəllərinin, küçə adlarının ölkəmizdə saxlanılması faktı demək olar ki, yoxdur. Varsa da, diqqətdən kənarda qaldığı üçün saxlanılıb. Bu məsələ, məncə, artıq həll edilib. Hesab edirəm ki, sovet dövründə yaşamış görkəmli Azərbaycan elm və mədəniyyət xadimlərinin yaşadıqları binalara müvafiq lövhələrin vurulması yaxşı olardı. Leninin heykəlinin saxlanılmasının xüsusi bir məqsəd daşıdığı qənaətində deyiləm. Biz daha çox müstəqil dövlətçiliyimizi təbliğ edən məsələlərə diqqət yetirməliyik”.

❑ Əli RAİS

# Dünya təbii fəlakətlərlə silkələnir - Bakıya təhlükə varmı?

## Qurban Yetirmişli: “Azərbaycanda o cür zəlzələlər baş verə bilməz”



Qurban Yetirmişli

**Son günlər Yaponiya və Ekvadorda baş verən zəlzələlər ciddi fəsadlar törədib. Şənbə günü gecə baş verən 7.8 bal gücündə zəlzələ Ekvadorda son on ildə baş verən ən güclü titrəyiş hesab edilib. Zəlzələ nəticəsində azı 272 nəfərin öldüyü, 1500-dən çox insanın yaralandığı bildirilir.**

Əsas zəlzələdən başqa şok titrəyişlər də olub, bunlardan ən böyüyü 5.4 bal gücə malik olub.

Digər zəlzələ isə Yaponiyada baş verib. Ölkənin Küsü adasında baş verən silsilə zəlzələlər nəticəsində ölənlərin sayı 44-ə çatıb. Çox sayda insanın itkin düşdüyü deyilir. Bununla belə, 94 min insan hələ də evakuasiya məntəqələrində qalır. Son məlumatlara görə, adada 160 min ev susuz qalıb, daha 100 min evin qaz təchizatı dayandırılıb. Yaponiyada daha çox zəlzələ qorxusundan təxminən 250 min insana evlərini tərk etmək tapşırılıb. Yüz minlərlə ailə isə axar susuz və elektriksiz qalıb. Aprelin 18-də isə Çilinin cənub hissəsində 5,6 bal gücündə zəlzələ baş verdiyi bildirilir.

Aprelin 19-da yerli vaxtla saat 02:46-də Xəzər dənizində də zəlzələ qeydə alınıb. Zəlzələ hiss olunmayıb. Bu barədə mətbuata Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzindən məlumat verilib. Zəlzələnin maqnitudası 3, dərinliyi 40 kilometr olub. Son günlər bir-birinin ardınca baş verən güclü zəlzələlər insanlarda Azərbaycanda da bu cür zəlzələlərin olacağı narahatçılığını yaradıb. Xatırladaq ki, Azərbaycanın da bəzi əraziləri seysmik baxımdan aktiv zonalardır və zamanla müxtəlif vaxtlarda Azərbaycanda da güclü zəlzələlər baş verib. Ən böyük 10 zəlzələni oxuculara xatırlatmaq istərdik.

**1. Şamaxı zəlzələsi** - 1667-ci il 6.9 bal gücündə. Zəlzələ nəticəsində 80 min insan dünyasını dəyişib. Bu zəlzələ Azərbaycan tarixində ən dəhşətli zəlzələ kimi qeyd edilir.

**2. Şamaxı zəlzələsi** - 1902-ci il 6.9 bal gücündə. Zəlzələ zamanı şəhərin 2 mindən çox sakini həlak olub, minlərlə insan yaralanıb, 20 minədək insan evsiz-eşiksiz qalıb, 4 min yaşayış evi, 8 qədim məscid, 10-dan artıq mədrəsə, 40 qədim şərq hamamı, onlarla ticarət obyekti, bazar-dükan dağılaraq yerlə-yeksan olub.

**3. Gəncə zəlzələsi** - 1139-cu il 6.3 bal gücündə. Güclü təkan nəticəsində Kəpəz dağı uçaraq Ağsu çayının qarşısını kəsib və Göygöl, Maralgöl, Ceyrangöl, Ördəkgöl, Zalugölü, Ağgöl, Qaragöl və Şamlıgöl yaranıb. Bəzi mənbələrə görə, 230 min, bəzilərinə görə isə 300 min insan həlak olub.

**4. Şamaxı** - 1859-cu il 5.9 bal gücündə. Zəlzələ nəticəsində Şamaxı şəhəri tamamilə dağılmışdı, buna görə Şamaxı quberniyasının mərkəzi Bakıya köçürülüb və quberniyanın özünün adı da yenilənib - Bakı quberniyası. Zəlzələ nəticəsində 100 nəfər dünyasını dəyişib. Məhz bu zəlzələnin gücü o qədər böyük olub ki, həmin hadisədən sonra “Şamaxı batan kimi” ifadəsi yaranıb.

**5. Şamaxı zəlzələsi** - 1669-cu il 5.7 bal gücündə. Zəlzələ nəticəsində 7 min insan dünyasını dəyişib.

**6. Şamaxı zəlzələsi** - 1828-ci il 5.7 bal gücündə. Ölən və yaralananlar haqda məlumat yoxdur.

**7. Şamaxı zəlzələsi** - 1872-ci il 5.7 bal gücündə. Zəlzələ şəhərdə dağıntılara səbəb olub.

**8. Ağdaş** - 1999-cu il. 5.4 bal gücündə. Zəlzələ nəticəsində insan itkisi olmasa da, 100-dən çox ev dağılıb, çoxlu sayda ev isə qəzalı vəziyyətə düşüb.

**9. Bakı - 2000-ci il.** 6.8 bal gücündə. Zəlzələ nəticəsində onlarla tikili dağılıb, çat verib.

**10. Zaqatala zəlzələsi** - 2012-ci il. 5.6 bal gücündə. Tikililərdə dağıntılar olub. İnsan tələfatı olmayıb.

Maraqlıdır, son günlər digər ölkələrdə baş verən zəlzələnin Azərbaycanda da təkrarlanma ehtimalı varmı?

**Azərbaycan Milli Elmlər Akademiyası nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin direktoru Qurban Yetirmişli deyir ki, Azərbaycanda o cür zəlzələlər baş verə bilməz:** “Birincisi, xüsusiyyətinə görə orada baş verən zəlzələlər güclü zəlzələlərdir. Bizim zonada isə tektonik qırılmalar var, onlar bloklar arasında olan gərginlikdən yaranan deformasiya nəticəsində baş verən zəlzələlərdir. Oradakı zəlzələlər daha güclü olur. Bizdəki isə zəif olur. İkincisi də zəlzələ baş verən yerlər Yer kürəsinin tamam başqa bir regionu, Alp Himalay silsiləsində olan seysmik zonada yerləşir. Onun da Azərbaycanın zəlzələ ocaqlarına heç bir təsiri ola bilməz”.

**Q.Yetirmişli zəlzələni əvvəlcədən nə vaxt və hansı gücdə olacağını təyin etməyin mümkünsüz olduğunu dedi:** “Ümumiyyətlə, dünyanın heç yerində zəlzələni əvvəlcədən bilmək qeyri-mümkündür. Zəlzələni əvvəlcədən bilmək məsələsi hələ ki həll olunmayıb. Çətin ki, yaxın vaxtlarda da bu həllini tapsın. Çünki bu, yerin dərinliyində saniyələrlə gedən bir prosesdir. Onun hansı gücdə, hansı gün baş verəcəyini təyin etmək mümkünsüzdür”.

❑ Günel MANAFLI

YENİ MÜSAVAT

Son səhifə

N 84 (6405) 20 aprel 2016



## Onu öpmək üçün 90 min dollar ödədi

Müğənni Riki Martinin qadın pərəstişkarı onunla öpüşə bilmək üçün inanılmaz jest edib. SPİD xəstələrinə yardım gecəsinə qatılan qadın 44 yaşlı müğənnini öpmək üçün auksionda iştirak edib. Ana Paulo Diniz adlı qadın çoxdan bəri öpüşmək istədiyi müğənni üçün sərvət xərcləyib. Auksionda ən yüksək məbləği səsləndirən qadın arzusuna çatıb. Xatırladaq ki, R.Markin cinsi azlıqlara məxsusdur və eynicinsli nikaha girib.

## Qadın özünü dördüncü mərtəbədən atdı, sevgilisi tutdu

İspaniyanın Qalisiya əyalətində bir qadın alt paltarlarında özünü yanan evin eyvanından aşağı atıb. Baş vermiş hadisənin videogörüntüləri Antonio Vazquez adlı istifadəçinin profili vasitəsilə yayılıb. Videogörüntülərdən də məlum olur ki, qadın binanın dördüncü mərtəbəsindən əynində ancaq alt paltarları ilə özünü yerə atır. "Daily Mail" qəzetinin xəbərinə görə, aşağıda qonşuları və sevgilisi odeyal tutaraq onu yerə dəyməyə qoymayıblar. Zərərçəkmişi tutublar və odeyala bükərək təcili yardım çağırıblar. 47 yaşlı qadın daha sonra xəstəxanaya çatdırılıb. Həkimlər ona döş qəfəsinin zədələnməsi diaqnozunu qoyublar. Qadının hansı səbəbdən evdə o vəziyyətdə olması, yanğının hansı səbəbdən çıxması isə sual olaraq qalır.

# Dişini hər gün yuyanın...

**Dişləri hər gün yumaq yaddaş zəifliyini və ya ümumiyyətlə, yaddaşın itməsi problemini aradan qaldırır. Bu, 270 nəfər yaşlı insan üzərində aparılan araşdırma nəticəsində məlum olub.**



Araşdırmaya görə, dişlərə düzgün qulluq orqanizmi bir çox problemlərdən qoruyur və beyinin fəaliyyətinə müsbət təsir göstərir. Lakin dişləri yumaqla yaddaş arasındakı əlaqəni alimlər hələ ki bilmirlər.

Həkimlərin sözlərinə görə, dişlərin çürüməsinin əsas səbəbi qidalanmadır. Xüsusilə şəkərli qidalar dişləri məhv edir. Ona görə də şirniyyatı çox sevən uşaqlarda diş çürümələrinə daha çox rast gəlinir. Tərkibində şəkər, karbohidrat çox olan qidalar, məsələn, kartof, çörək və sairə ağızda süd turşusu əmələ gətirir. Bu isə kimyəvi element sayılır və ağızda çox qaldıqda tədricən dişi zədələməyə başlayır. Süd turşusu sərt toxumanı yavaş-yavaş zəiflədir. Nəticədə diş çürüməyə başlayır.

## Oğurluğa getdi, barmağını evdə qoydu



İstanbulun Beyoğlu bölgəsində bir evə girən 6 oğru ev sahibi oyanınca qaçıb. Qaçan oğrulardan birinin barmağı nərdivana ilişib və qopub. Amma oğru keçirdiyi stressin təsirindən barmağını yerdən də götürməyib və qaçmağa davam edib. Binanın beşinci mərtəbəsində yerləşən evdən oğurluq edən oğrular içəridə yatan 3 nəfərə əhəmiyyət vermədən işlərini görüblər. Noutbuk, cib telefonu, bank kartları, pulqabını oğurlayan oğrular ev sahiblərindən birinin oyandığını görüb, qaçmağa başlayıblar. Nəticədə isə onlardan biri barmağını belə itirib. Hazırda polis qırılmış barmağın sahibinin kimliyini tapmağa çalışır.

## Məşhurluq insanın ömründən oğurlayır



Amerikada yayımlanan bir qəzetin ölüm elanları səhifəsi araşdırılandan sonra ortaya maraqlı bir nəticə çıxıb. Nəticələrə görə, daim göz önündə olan şöhrətli bir insan olmaq ömrü qısalda bilir. Belə ki, sənətçilər, idmançılar digər peşələrdə təmsil olunanlardan bir neçə il erkən dünyasını dəyişir. Araşdırmaçılar bildirib ki, onların gəldiyi nəticələr konkret faktlara əsaslanmasa da şöhrət insanın həyatını həqiqətən də oğurlayır. BBC-nin xəbərinə görə, avstraliyalı alimlər 2009-2011-ci illərdə "Nyu York Times" qəzetində yayımlanan 1000 ölüm elanını araşdırıb. Məşhurların orta ömür həddi 77 il olaraq müəyyənləşib. Buna qarşılıq olaraq akademiklər, elm adamlarında orta ömür həddi 82 yaş olub. Məşhurların daha çox xərçəng, xüsusən də ağciyər xərçəngindən dünyasını dəyişdiyi də müəyyənləşib.



## 120 min dollar ödəyib, 6 qabırğasını çıxartdırdı

İsveç sakini 6 qabırğasını çıxartdırıb. Belinin 40 santimetr olması üçün belə bir addım atan Piksi Foks adlı qadın bu əməliyyat üçün 120 min dollar ödəyib. Bu barədə lenta.ru saytı xəbər verir. P.Foks deyir ki, cərrahiyyə müdaxiləsindən sonra hər gün sıx korset taxır, onu ancaq duş və ya fitnes məşqlər zamanı çıxarır. Qadın eyni zamanda sinəsini böyütdürüb, permanent makiyaj etdirib, botoksdan istifadə edib. "Mən indi daha bir nadir əməliyyat etdirmək istəyirəm, amma konkret hansını... demək istəmirəm". Bunu da Foks deyib. Piksinin hazırkı görüntüsü multiplikasiya qəhrəmanı Cesika Rebbiti xatırladır. İsveç qadın xarici görünüşünü 2015-ci ilin noyabrından etibarən dəyişməyə başlayıb. Məqsədinə çatmaq üçün qadın pendir dietasına keçib və gündə 2-5 saat idman zalında keçirib.




**QOÇ** - Yaxşı olar ki, günün əsas hissəsini mənzil şəraitində keçirəsiniz. Uzaq yola çıxmaq, açıq havada olmaq müəyyən qədər uğursuzluq gətirə bilər. Dinə zidd hərəkətlərə yol verməyin.

**BUĞA** - Bu gün Bakı vaxtı ilə saat 13:43-də sizin bürc başladığı üçün hamıdan enerjili olacaqsınız. Maliyyə planlarınızın reallaşması sürətlənəcək. Həmkarlarınızla aranızda yaranmış soyuqluğu dəf edin.

**ƏKİZLƏR** - Maddi problemləriniz olsa da, işlə bağlı heç bir çətinliyiniz olmayacaq. Ulduzlar gələcək planlarınızı məxfi saxlamağı məsləhət görür. Hətta ən yaxın adamlarınıza belə sirr açmayın.

**XƏRÇƏNG** - Mövcud gərginlikdən qurtulmaq üçün uzaq səfərə çıxmağınız məsləhətdir. Çünki həm fiziki, həm də zehni cəhətdən çox yorulmusunuz. Sevgi münasibətlərində səmimi olun.

**ŞİR** - Bir çox yeniliklərin şahidi olacaqsınız. Bununla yanaşı, uğurlu sövdələşmələr aparmaq, banklarla işləmək üçün şanslarınız artacaq. Himayənizdəki uşaqların qayğısına qalın.

**QIZ** - Qarşınızda maraqlı bir təqvim durur. Bu səbəbdən də fürsətinizi fövtə verməyin. Sevdiyiniz adamlarla bir yerdə olun. İşgüzar münasibətlərdə ölçülü-biçili davranmağı da unutmayın.

**TƏRƏZİ** - İxtiyarınızda olan bu təqvimi məhəbbət istiqamətinə yönəldin. Çünki gün ərzində ən yüksək ovqatı məhz sevgidən alacaqsınız. Nahardan sonra müəyyən qədər işlə məşğul olmaq olar.

**ƏQRƏB** - Ətrafınızdakı insanların sizə münasibətinin dəyişməsi işlərinizə hopan gərginliyi azaldacaq. Xüsusən də saat 15-dən sonra şəxsi işlərinizdə irəliləyişlər və şanslar baş verəcək.

**OXATAN** - Təzə xəbərlər yolunuzu gözləyir. Ürəyinizcə olan və gələcəyiniz üçün böyük önəm daşıyan təkliflər də ala bilərsiniz. Bir sözlə, bu təqvim taleyinizdə əsaslı dönüş yarada bilər.

**OĞLAQ** - Neçə gündən bəri yığılmış gərginliyiniz ümumi ovqatınızı aşağı salacaq. Odur ki, ciddi işlərə girişməyə dəyməz. Səhhətinizi qoruyun. Axşama yaxın maraqlı adamlarla görüşləriniz olmalıdır.

**SUTÖKƏN** - Göy qübbəsi yalnız səfərlər üçün uğurlu təqvim yaşayacağınızdan xəbər verir. Doğmalarınıza, yaxınlarınıza baş çəkməyə dəyər. Hətta pulunuz olmasa belə, bir qədər borc götürün.

**BALIQLAR** - O qədər də uğurlu gün deyil. Bir tərəfdən səhhətinizlə bağlı problemlər, digər tərəfdənsə qarşılıqlı münasibətlərdə anlaşılmazlıqlar ovqatınızı poza bilər. Təmkinli olun.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Çiçəklər "ağır rok" dinləsə...



Böyük Britaniyada məşhur botanik Kris Birdşou maraqlı bir kəşf edib. Bağbanlıqla məşğul olan Birdşou bildirib ki, çiçəklərə ağır rok musiqisi "dinlətmək" lazımdır. Onun sözlərinə görə, bitki bu musiqini dinləyəndən sonra sürətlə böyüyüb gözəlləşəcək. O, bu nəticəyə məsləkdaşları ilə birgə apardığı araşdırma nəticəsində gəlib. Təcrübə zamanı çiçəklərə həm klassik, həm ağır rok, həm də ingilis pop müğənnisi Klif Riçardın mahnılarını "dinlədiblər". Nəticədə klassik musiqinin çiçəklərin boyuna heç bir təsir göstərmədiyi üzə çıxıb. Pop musiqisi isə çiçəkləri rəsmən öldürüb.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750